Дастанын вятянпярвярлик пафосу, Авропанын диэяр милли ядябиййатларында Сид образына мцраъият едян йазычылар (П.Корнел, Щердер) вя башга шяраитля ялагядар олараг бу образын йени шярщи.

Алман гящряманлыг дастаны вя онун башлыъа мювзу даиряси. «Гудрун щаггында няьмя» вя «Нибелунглар щаггында няьмя». Бу ясярлярин даща гядим шифащи поезийада сцжет кюкляри. «Нибелунглар щаггында няьмя»нин тарихи ясасы мясяляси. Бу дастанын баш гящряманы Зигфрид щаггында. Ясярдя феодал мцщарибяляри вя гясбкарлыьынын тянгиди. Дастанда характерляр проблеми. Етсел (Атилла) образы. «Кудруна» дастанынын тящлили.

Орта ясрлярдя славйан вя Балкан ядябиййаты. «Марко Кралевич щаггында няьмя»нин бядии хцсусиййятляри. Серб гящряманлыг дастанынын тарихилийи. «Косово чюлцндя вурушмалар щаггында няьмя». Серб гящряманлыг дастанлары вя тцрк дастан яняняляри. «Марко Кралевич щаггында няьмя» вя «Короьлу». «Короьлу»нун Балкан варианты. Балканларда «Дядя Горгуд» мотивляри.

Боснийа вя Щерсоговина халг шеири. Боснийа мящяббят лирикасы. «Севдалинка»лар. «Щясян аьанын ханымы» балладасы. Боснийа мцсялман ядябиййаты. Ъярзяляз Яли щаггында Боснийа мцсялман дастаны. «Молла (Хоъа) Нясряддин лятифяляринин Балкан вариантлары. Боснийада тцрк вя яряб дилли мцсялман ядябиййаты.

Авропа, Бизанс вя Орта ясрlər Шярг дювлятляри арасында сийаси вя мядяни ялагялярин эцълянмяси.

8. Kurtuaz (saray ədəbiyyatı). Cəngavər ədəbiyyatının yaranması. Provans və onun cəngavər ədəbiyyatının yaranmasında rolu. Trubadur poeziyası (Bertran de Ventadorn, Caufre Ridal, Bertran de Born). Trubadur lirikasında Provans poeziyasının xalq əsaslarından istifadənin səciyyəsi. Provans poeziyasının ümumavropa əhəmiyyəti haqqında.

Trubadur poeziyası və Şərq. «Le»lər. Truver ədəbiyyatı. Cəngavər lirikası – şimali Fransada truver və Almaniya minnezinger (minnezanq) poeziyası. Valter fon de Foqelveyde və onun poeziyasının xəlqiliyi.

Qərbdə kurtuaz (cəngavər) romanı və onun silsilələri. Yazılı ədəbiyyatın təsiri. Antik romanlar silsiləsi və Orta əsrlər ədəbiyyatı.

Cəmiyyətdə baş verən tarixi dəyişikliklərin XII-XIII əsrlərin cəngavər romanında inikası (Kretyen de Trua, Volfram fon Eşenbax). İnsani məhəbbətin tərənnümü və feodal əxlaqını tənqid təşəbbüsləri. Breton silsiləsi və onun tərənnüm etdiyi qəhrəmanlığın xalqla əlaqəsi (Kelt rəvayətləri).

Breton silsiləsi romanlarının Qərbi Avropa ədəbiyyatında işlənməsi. «Tristan və İzolda» haqqında roman. Kretyen de Truanın romanları. «Erek və Enida» və Şərq dastan ənənələri. «Fluar və Blanşeflor», «Okassen və Nikolet» romanları və Şərq mövzusu.

XIV-XV əsrlərdə kurtuaz romanının zəifləməsi – feodal quruluşunun süqutunun başlanmasının inikasıdır.

Şəhər və xalq ədəbiyyatı. Latın dilli vaqant poeziyası və Orta əsrlər ədəbiyyatının inkişafında onun yeri. Vaqant poeziyasının ictimai kökləri və azad ruhu. Vaqant poeziyasında ruhanilər haqqında satira. Vaqant ədəbiyyatı və Şərq. Vaqantlıq və dərvişlik (sufizm).

XII-XIII əsrlərdə kəndli və şəhər üsyanları və şəhərlərin feodallarla mübarizəsi. Şəhər əhalisi təbəqələrinin ədəbiyyatının yaranması və onun realist xarakteri. Şəhər ədəbiyyatının janrları və üslubu. XII-XIII əsrlərdə satirik ədəbiyyatın inkişafı. Orta əsrlərin şəhər ədəbiyyatında feodal quruluşunun ayrı-ayrı tərəflərinin tənqidi. Fabliolar və şvanklar. Fabliolar

və Şərq ədəbiyyatı. «Aristotel haqqında», «Eşşəyin vəsiyyəti» fabliolları. «Eşşəyin vəsiyyəti» və S.Ə.Şirvaninin «Köpəyə ehsan» satirası. «Zorən təbib» və Azərbaycan ədəbiyyatı.

Orta əsrlər Avropada xalq romanları. Kələkbazlıq romanı «Tülkü haqqında roman» – antifeodal satira kimi. «Tülkü haqqında roman» həyat hadisələrinin bədii ümumiləşdirmə vasitələri.

Məhəbbət romanları. «Qızıl gül haqqında roman». «Qızıl gül haqqında romanıın» iki hissəsi. «Qızıl gül haqqında roman»da antifeodal satira ünsürləri. Avropada məhəbbət romanları və Şərq ədəbiyyatı.

Orta əsrlərdə dünyəvi teatrın yaranması. Müstəqil komik janr kimi farsların yaranması. «Teofilin oyunu» və «Vəkil Patelen» erkən Orta əsrlər teatrının nümunələri kimi. «Vəkil Ratelen» və «Zorən təbib» əsərlərinin müqayisəsi.

XIV-XV əsrlərdə antifeodal xalq hərəkatı. Uot Tayler üsyanı.

Lenqlendin «Əkinçi Pyotrın yuxusu» poeması. Robin Hud haqqında balladalar – kəndlilərin feodallar əleyhinə etirazını əks etdirən poeziyasıdır. Feodal zülmünə qarşı silahlı mübarizəyə qalxmış Robin Hud obrazının mənası və əhəmiyyəti. Balladaların bədii xüsusiyyətləri Robin Qud haqqında.

Yan Qus müharibələri və onların XV əsr çex ədəbiyyatının inkişafında əhəmiyyəti.

9. İntibaha keçid dövrü (önintibah) ədəbiyyatı (İtaliya. A.Dante). İntibaha keçid (önintibah) dövrü mədəniyyəti. İntibaha keçid dövrü ədəbiyyatının xüsusiyyətləri. XIII əsr Avropada İntibaha keçid dövrü kimi.

İtaliyada intibaha keçid dövrü. Orta əsrlərin son, yeni dövrün birinci şairi Aligyeri Dantenin həyat və yaradıcılığı. Dantenin «Yeni həyat» əsəri və «Yeni şirin üslub» poeziyası ilə onun bağlılığı. (Qviniselli, Kavalkanti), «Ziyafət», «Xalq dili haqqında» və «Monarxiya haqqında» traktatları. «İlahi komediya» əsərinin quruluşu və ideya məzmunu. Dante yaradıcılığının formalaşmasında İtaliya xalq ədəbiyyatının əhəmiyyəti. İtalyan dilinin formalaşmasında Dantenin rolu.

İtaliyada siyasi mübarizənin kəskinləşməsi. Siyasi və dini partiyaların fəaliyyəti və onların bədii ədəbiyyata təsiri. «İlahi komediya» əsəri və Şərq. Dantenin lirikası. Dante və Azərbaycan. «İlahi komediya» Azərbaycan dilində.

10. **Fransada və İngiltərədə İntibaha keçid (Önintibah) dövrü ədəbiyyatı (F.Viyon və C.Çoser).** Fransada İntibaha keçid dövrü ədəbiyyatı. Fransua Viyonun həyatı və dünyagörüşü. Viyonun balladalarına folklorun təsiri. F.Viyonun yaradıcılığı. «Kiçik vəsiyyət» və «Böyük vəsiyyət» əsərlərinin təhlili. Viyon İntibah dövrü Fransa poeziyasının sələfi kimi.

**İngiltərədə İntibaha keçid dövrü ədəbiyyatı (C.Çoser).** Cefri Çoserin həyatı və yaradıcılığının əhəmiyyəti. 1381-ci il kəndli müharibəsinin C.Çoser yaradıcılığının inkişafında həlledici təsiri. «Kenterberi hekayələri» XIV əsr İngiltərə həyatındakı ziddiyyətlərin və güclənən burjua-ziyanın təzyiqi altında feodal münasibətlərinin dağılmasını göstərən əsər kimi.

İngilis realizminin banisi Çoser haqqında. Çoserin yaradıcılığı. «Kenterberi hekayələri» poeması və Şərq.

11. **İntibah ədəbiyyatı.** İtaliya inibahı, Petrarka, Bokkaçço. İntibah «bəşər tarixində baş vermiş ən böyük mütərəqqi çevriliş» kimi. Fəhlə sinfinin sələfi olan zəhmətkeş kütlələrinin iştirakı haqqında. Milli dövlətlərin və burjua təşəkkülü. Milli dillərin və milli ədəbiyyatların inkişafı.

İntibah dövrü humanizmi və onun ictimai kökləri. Humanizm.

İntibah mədəniyyətinin əsas estetik prinsipləri. Klassik (antik) irsin dirçəldilməsi. Yeni təhsil-tədris metodları. Xalq yaradıcılığına yeni münasibət. Universallıq.

Azərbaycan və Şərq ədəbiyyatşünaslarının İntibah (Renessans) mədəniyyətinə verdikləri qiymət. XV-XVI əsrlərdə Qərbi slavyan ölkələrində ədəbi prosesin xüsusiyyətləri (N.Rey, Y.Koxanovski, Dubrovnik ədəbiyyatı). Bu dövr rus ədəbiyyatının xüsusiyyətləri.

12. İtaliya İnibahının ikinci və üçüncü dövrləri. İtaliya mədəniyyəti haqqında. İntibah dövründə İtaliya ədəbiyyatının inkişaf mərhələləri. XIII-XIV əsrlərdə İtaliya ictimai həyatının

tarixi xüsusiyyətləri. Feodallarla burjua sinfi arasında mübarizənin kəskinləşməsi. Florensiya və onun mədəniyyəti.

İtaliyada erkən İntibah. Petrarka. Petrarkanın elmi və ədəbi fəaliyyəti. Petrarkanın kansonaları.

Covanni Bokkaçço. Yazıçının yaradıcılığının inkişaf mərhələləri. «Fyezolan pəriləri», «Ameta», «Fyametta», əsərləri. «Dekameron» və onun İntibah ədəbiyyatı tarixində rolu. «Dekameron»da o zamankı İtaliyanın ictimai həyatının təsviri. «Dekameron»da antiklerikal və antifeodal motivlər. Bokkaçço novellaçı kimi.

Lorenso Mediçi dərnəyi. İncəsənətin (rəssamlığın, heykəltaraşlığın və mearlığın) inkişaf etməsi. L. da Vinçi, B.Mikelancelo və Rafael Santi.

XVI əsr burlesk poeziyası. folklor kökləri. L.Pulçinin poeziyası «Del arte komediyası» və şifahi xalq yaradıcılığı əsaslarından saray incəsənətinə tərəf inkişafı.

XV-XVI əsrlərdə italyan cəngavər poemasının sosioloji məzmunu. Boyardonun «Orlando» əsəri – saray cəngavər poemasıdır.

L.Ariosto. Şairin dünyagörüşünün humanist ünsürləri. «Çılğın Roland» əsəri: poemadakı realizm və fantastika cizgiləri yazıçının dünyagörüşündəki ziddiyyətlərin ifadəsi kimi. Ariostonun kinayəsi.

T.Tassonun «Azad edilmiş Yerusəlim» əsəri. XVI əsrdə İtaliyanın qabaqcıl ədəbiyyatı fəlsəfəsi və elmi feodal-katolik irticasına qarşı mübarizədə. Cordano Bruno və onun qabaqcıl İtaliya ədəbiyyatının inkişafına gətirdiyi yenilik.

N.Makiavellinin «Hökmdar» əsəri XVI əsrdə İtaliyada təşəkkül edən və xalq mənafeyinə zidd olan burjua siyasi doktrinasının ifadəsidir. XVI əsr humanist fikrinin qaqabcıl nümayəndələrində «makiavellizmin» tənqidi.

13. Alman və Niderland İntibah ədəbiyyatı. Alman və Niderland şəhərlərində xalq kütlələrinin feodalizmə qarşı mübarizəsi. Niderlandın tarixi inkişafının xüsusiyyətləri. İctimai münasibətlərin erkən inkişafı. İntibah dövründə Niderland mədəniyyəti.

Rotterdamlı Erazmın yaradıcılığı. «Axmaqlığın tərifi» və «Ev söhbətləri» əsərlərində feodal cəmiyyətinin və pul hakimiyyətinin satira atəşinə tutulması. «Axmaqlığın tərifi» əsəri Azərbaycan dilində. Ədəbi tənqid Erazm haqqında.

XVI əsrdə Almaniyanın vəziyyəti. «Almaniyada kəndli müharibəsi» və onun XVI əsr Alman ədəbiyyatının öyrənilməsində onun əhəmiyyəti. S.Brantın yaradıcılığı. «Axmaqlar gəmisi» əsərinin təhlili.

Reyxlinin dərnəyi. Onun iştirakçıları arasında demokratik meyllər. Ulrix fon Hüttenin ədəbi fəaliyyəti.

Huttenin əsərlərində vahid və müstəqil Almaniya uğrunda mübarizə ideyası. «Avamların məktubları» əsəri. «Məktublar»da tipikləşdirmə. M.Lüter və onun XVI əsr ictimai-siyasi və mədəni həyatında yeri. Lüterin feodal irticası ilə ittifaqa girməsi.

Humanist T.Münser, onun siyasi və ədəbi fəaliyyəti. H.Saksın yaradıcılığının xalqla əlaqəsi (meysterzanq). H.Saks satirik kimi. Onun əsərlərində realist cizgilər. Saksın pyeslərində xəlqi obrazlar. Lüteranlığın Saks yaradıcılığına təsiri.

XVI əsr xalq lirikası. Xalq kitabları. «Şildebürgerlər», «Til Eylenşpigel» xalq romanları. «Doktor Faust» romanı haqqında. Fişartın fəaliyyəti.

14. Fransız İntibahı. XV əsrin ikinci yarısında F.Viyonun poeziyası və fransız İntibahı. I Fransisk dövründə mütləq monarxiya İtaliya müharibələri və V Karlla mübarizə. XV-XVI əsrlərdə Fransada humanizmin yaranması və inkişafı. Fransa humanizminin inkişafındakı mərhələlər.

Feodal-dini irticasına qarşı çıxan bir qrup humanistlərin meydana gəlməsi – K.Marlo, B.Deperye, F.Rable.

B.Deperyenin «Dünyanın sinci» satirasının antifeodal və antikderikal səciyyəsi. XV-XVI əsrlərin Fransa novellası ilə müqayisədə Deperyenin bir novellaçı kimi yeniliyi.

Fransua Rable yaradıcılığı XVI əsr Fransa humanizminin yüksək mərhələsi kimi. «Qarqantua və Pantaqruel» romanı. Rablenin xalq ədəbiyyatı ilə bağlılığı. Rable utopiyası və

Nizami. Onun utopik görüşlərinin səciyyələndirilməsi. Rable satirasının bədii ifadə vasitələri. Rablenin xəlqiliyi. Fransız dilinin inkişafında onun rolu, Fransa və dünya ədəbiyyatında Rablenin yeri.

Tərəqqipərvər Fransız ədəbiyyatında Rable ənənəsinin davam etdirilməsi «fərəhli azaddüşüncəliliyin» təcəssümüdür. Baxtin Rable haqqında. Rable və Azərbaycan.

15. «Pleyada» şairləri. M.Monten. Fransa ədəbiyyatı tarixində «Pleyada» qrupunun yeri. «Pleyada»çıların nəzəriyyəsində Fransa milli ədəbiyyatını yaratmaq ideyası. Dyü Bellenin Fransız dili haqqında traktatı. Poetik janrın islahatı. Ronsarın poeziyası. Ronsarın poeziyasının milli əhəmiyyəti. M.Montenin «Təcrübələr» əsəri.

16. İspaniya və Portuqaliya İntibahı. Servantes. İntibah dövründə İspaniyanın tarixi inkişafının xüsusiyyətləri.

Roxasın yaradıcılığı və onun «Selestina» romanı İspaniya və Portuqaliyada erkən İntibah ədəbiyyatının nümunəsi kimi.

İlk kapital yığımı dövrünün xüsusiyyətlərinin L.Kamoensin «Lusiada» əsərində inikası. XV-XVI əsrlərdə portuqal və ispan romanslarının çiçəklənməsi.

XVI əsrdə ispan cəngavər romanı («Uelsli Amadis»). Çoban romanı. Montemayorun «Diana»sı. Ərəb məqamələri və Avropa kələkbaz ədəbiyyatı. Kələkbaz romanı və onun antifeodal istiqaməti. «Tormesli Lasorilyo» romanı. M.Alemanın «Qusman de Alfaraçi» romanı haqqında. Bu romanlarda olan realist meyllərin əhəmiyyəti.

Servantesin ilk əsərlərinin əhəmiyyəti. Servantesin pyesləri. «İntermediya»ların və «Nəsihətamiz novellalar»ın realist səciyyəsi. «Numansiya» əsəri haqqında. «Don Kixot» romanı. Don Kixot obrazının mürəkkəbliyi. Don Kixot obrazının faciəviliyi, reallıq hissinin itirilməsi. Don Kixot və Sanço Pansa haqqında. Sanço Pansa XVI əsr ispan xalqına məxsus cizgilərin ümumiləşdirilmiş obrazıdır. «Don Kixot» romanının dünya ədəbiyyatında əhəmiyyəti haqqında. Servantes və Azərbaycan ədəbiyyatı.

17. İngilis İntibah ədəbiyyatı. Şekspir. İngilis humanizmi və onun xüsusiyyətləri. Tomas Morun «Utopiya»sı. «Utopiya»dakı ictimai quruluş. «Utopiya»nın humanizmi və xəlqiliyi. T.Morun dünyagörüşündəki ziddiyyətlər. T.Mor utopiyasının özünəməxssuluğu. T.Mor və N.Gəncəvi utopiyalarının müqayisəsi.

Xalq balladası. «Tobin Hud haqqında ballada» əsərinin təhlili. Poeziya: Uayet, Serrey, Spenser, Sidney, Roley haqqında. Romanaın yaranması. Əsas nümayəfndələri: C.Lilinin yaradıcılığı. Loc, Neş, Deloni. F.Bekonun yaradıcılığı.

Şekspirin sələfləri. Qeyvud, Qrin, T.Kid, K. Marlo ingilis ədəbiyyatında faciənin banisi kimi. («Böyük Teymurləng», «Doktor Faust»). Kristofer Marlo və Şekspir. Robert Qrininin dramaturgiyası. «Vekfild səhra gözətçisi» əsərindəki xalqi surətlər.

18. Şekspirin faciələri. Şekspir yaradıcılığının dövrləşdirilməsi. Tarixi xronikaları. («VI Henrix», «IV Henrix», «V Henrix»). «III Riçard»da istibdadın və kral hakimiyyətinin xalqa zidd mahiyyətinin tənqidi. Kəndli müharibəsinin mənzərəsi («VI Henrix»).

Şekspirin komediyaları İntibah dövrü ingilis dramaturgiyasının yüksək zirvəsi kimi. Şekspirin komediyalarında humanist fikrin («Heç nədən hay-küy», «Şıltaq qızın yumşalması»).

Şekspir yaradıcılığının ikinci dövrü: XVII əsrin əvvəlində İngiltərədə baş verən tarixi hadisələrin əks etdirilməsi. Mütləqiyyət quruluşuna Şekspirin mənfi münasibəti. («Hamlet», «Maqbet», «Kral Lir»), bu faciələrdə o zamankı müasir varlığın dərin tənqidi. Şekspir yaradıcılığının yetkin dövrü («Hamlet», «Otello»). Şekspirin antik faciələri («Afinalı Timon»).

Şekspir dramaturgiyasının üçüncü dövrü. Şekspirin yaradıcı-lığında ingilis humanizminin inikası. Mütləqiyyətin tənqidinin davam etdirilməsi («Simbelin», «Qış nağılı», «Tufan»). Prospero obrazı – Şekspir yaradıcılığının son mərhələsindəki ziddiyyətlərin inikası kimi.

Şekspirin sonetləri. Şekspir yaradıcılığında və ingilis ədəbiyyatının inkişafında onların yeri.

Şekspirin Azərbaycan dilinə tərcümələri. Şekspir Azərbaycan tənqidində. Şekspir və Azərbaycan teatrı. Şekspir və Azərbaycan dramaturgiyası. Şekspir və Şərq. Şekspirdən sonrakı ingilis dramaturgiyası.

19. **XVII əsr ədəbiyyatı**. İspan ədəbiyyatı. Barokko ədəbi cərəyanı və onunla əlaqədar olan ispan ədəbiyyatının xüsusi cəhətləri. Kulteranizm, konseptisizm, qonqoraizm. XVII əsrdə ispan «kələkbazlıq» romanı (Kevedo, Luis Veles de Qevara).

İspan ədəbiyyatının «Qızıl dövrü». İspaniyada İntibah realizmi. Lope de Veqanın həyat və yapadıcılığı. Lope de Veqa yaradıcılığının ikinci dövrü. «Fuente Ovexuna» əsəri. «Komediya yazmaq üçün yeni qaydalar» əsəri. «Əba və qılınc» dramları. «Sevilya ulduzu» əsərinin təhlili. Lope de Veqanın pyeslərində xəlqilik. «Kuzəli qız», «Nə yardan doyur, nə əldən qoyur» əsərləri. Lope de Veqanın əsərləri Azərbaycan dilində.

Lope de Veqa məktəbinin davamçıları. Gilyen de Kastronun «Sidin gəncliyi», «Əbədi məhəbbət» əsərləri. Alarkonun «Seqova toxucusu» dramı və «Divarın qulağı var», «Şübhəli həqiqət», «Salamin Feniksi» komediyaları. Luis de Gevaranın «Doğma qanından əziz olan kral» və «Syerra ayı» əsərləri. Gevaranın Atilla və Əmir Teymur haqqında əsərləri. Tirso de Molinanın həyat və yaradıcılığının birinci dövrü. «Yaşıl şalvarlı Don Xil» və «Əxlaqlı Marta» əsərləri. Don Juan mövzusu. «Sevilya şıltağı yaxud Daş qonaq» əsərinin təhlili.

Pedro Kalderon. Barokko. Kalderonun yaradıcılıq yolunun mərhələləri. Kalderonun «Əba və qılınc» dramları. Onun «Gözəgörünməz xanım», «Mətin şahzadə», «Həyat yuxudur», «Ölümdən sonra həyat» və başqa pyesləri. «Şərəf dramları»nda bədii metod. Kalderonun «Salamey alkaldı» dramı.

Poeziya. Luis de Qonqoranın həyat və yaradıcılığı. Qonqoraizm ədəbi cərəyanı barokko ədəbiyyatının bir növü kimi. Qonqoranın sonetləri. «Polifem və Qalateya haqqında hekayət» və «Tənhalıq» əsərləri. Qanqoranın ispan dilli dünya poeziyasına təsiri.

Nəsr. Kevedonun həyat və yaradıcılığı. «Yuxugörmələr» əsərinin təhlili. «Pablos adlı bicin həyatının tarixi» romanı. Luis Veles de Qevara. «Topal şeytan» romanının təhlili. Baltasar Qrasianın yaradıcılığı. «Cib orakulu, yaxud ağıl Elmi» əsərinin təhlili.

20. XVII əsr Fransa ədəbiyyatı. Fransız ədəbiyyatında barokko meylləri. Presioz ədəbiyyatı.

Ş. Sorelin «Fransionun həqiqi gülməli həyatının təsviri» romanının təhlili. O dövrdə fransız azadxahlar ədəbiyyatının əsas ədəbi janrları. Realist məişət romanı (P. Skarron) və burlesk şeiri.

Klassisizm ədəbi cərəyanı. Bu cərəyanın ilk nümayəndələri – Malerb. Klassisizm estetikası və nəzəri əsasları. XVII əsrin ikinci yarısında fransız klassisizminin qabaqcıl qolları. Klassisist dramaturgiyanın ilkin inkişaf mərhələsi. Pyer Kornel. «Sid»in əsas qəhrəmanları. «Horatsilər» faciəsi. «Tsinna, yaxud Avqustun kəraməti» və «Poliyevk» əsərləri. «Nikomed» faciəsi.

«Tartüf» əsəri. Tartüf obrazı. «Tartüf» və C.Məmmədquluzadənin «Olülər» əsərlərinin tipoloji təhlili. «Don Juan» komediyasının obrazlar sistemi. «Mizantrop» komediyası. Alsest surəti.

Molyerin «Zadəganlığa can atan meşşan», «Xəsis», «Yalançı xəstə» komediyaları. «Don Juan» və «Tartüf» komediyalarının ideya-məzmun təhlili. «Xəsis» komediyası. «Xəsis» komediyası ilə M.F.Axundzadənin «Hacı Qara» komediyasının müqayisəli təhlili. «Gülünc ədəbazlar» komediyası. Özlərini kübarlara qatmaq istəyən burjua nümayəndələrinin iənqidi. «Skapenin kələkləri». Xalqdan gələn məzhəkə janrı və Molyerin sonrakı komediyaları. Molyer komediyalarında azad fikir ənənələri.

Molyer Azərbaycanda. Molyerin komediyaları Azərbaycan səhnəsində.

Jan Rasinin yaradıcılığı. «Andromaxa» faciəsində insanın daxili aləmini açmaq ustalığı və əsərin ideya-fəlsəfi konsepsiyası. Andromaxa surəti və Rasin yaradıcılığında müsbət qəhrəman problemi. «Britanik» faciəsi. «Britanik»də xalq mövzusu. «İfigeniya Avliddə» əsərində faciəsi.

«Fedra» əsərinin təhlili. «Qofoliya». «Gülünc ədəbazlar», «Arvadlar məktəbinin tənqidi» və «Versal ekspromtu». Molyerin estetik mövqeyi və klassisizm ehkamı.

Jan Lafontenin novella və təmsilləri. Lafonten yaradıcılığının təkamülü. Onun «Nağılları»ı. Lafonten təmsillərində satira və sadə xalq nümayəndələrinin surəti. Lafonten

təmsillərinin janr özünəməxsusluğu. Lafonten və antik təmsil. Lafonten və Şərq təmsilləri. Lafonten və Azərbaycan ədəbiyyatında təmsil janrı.

N. Bualonun yaradıcılığının əsas mərhələləri. Onun «Poeziya sənəti haqqında» əsəri klassisizm ədəbi cərəyanının nəzəri əsası kimi və onun tarixi əhəmiyyəti. «Poeziya sənəti haqqında» əsəri Azərbaycan dilində.

Pol Skarronun yaradıcılığı. «Komik roman» və «Tragikomik novellalar» əsərləri. Skarronun komediyaları. «Codle, yaxud Cənab nökər» və «Codle-duel ölüsü». XVII əsrin birinci yarısında fransız «azadxahlar»ının plebey və üsyankar əhval-ruhiyyəsinin ifadəçisi olan Sirano de Berjerakın yaradıcılığı. «Başqa dünya, yaxud Ayın dövlət və imperiyaları» elmi-fantastik romanının əhəmiyyəti. Sirano de Berjerakın romanlarında utopiya problemləri.

XVII əsrin ikinci yarısında fransız nəsrinin inkişafı. Deni de Verasın «Severambların tarixi» əsəri utopik roman nümunəsi kimi.

Fransada hikmət ədəbiyyatı. Laroşfukonun «Maksimlər» əsərinin janr özünəməxsusluğu. Mizantropiya dünyagörüşünün ifadəsi.

M. de Lafayyetin yaradıcılığı. Onun «Klev şahzadə xanımı» romanı. Romanın ideya-bədii problematikası. Psixoloji təhlil ustalığı. «Klev şahzadə xanımı» romanının tarixi rolu haqda Stendalın fikirləri.

Jan de Labrüyerin «Xasiyyətlər, yaxud əsrimizin əxlaqı» əsəri.

21. XVII əsr Almaniya və İngiltərə ədəbiyyatları. XVII əsr alman ədəbiyyatı və Otuzillik müharibə. Y.R.Bexer XVII əsr alman ədəbiyyatı haqqında. Alman klassisizminin xüsusiyyətləri. Martin Opisin «Alman poeziyası haqqında kitab»ı. Onun məktəbinə aid olan şairlər.

Almaniyada barokko ədəbiyyatı. Martin Opis, Fridrix Loqau, Paul Fleminq, Andreas Qrifiusun poeziyasında vətənpərvərlik mövzusu. Xristian Hofmansvaldaunun yaradıcılığı. Paul Herhartın poeziyası.

Qrifiusun «Vətənin göz yaşları» şeirinin məzmunu və təhlili. Onun faciələrindəki ziddiyyətlər və komediyalarındakı realizm meylləri.

Alman romanının inkişafı. İ.M.Moşeroşun «Filander» əsəri. Y.Qrimmelshauzenin yaradıcılığı. «Simplisissumus» romanı. Müharibənin pislənməsi. Əsas qəhrəman surəti. Qrimmelshauzenin kitabında İntibah ənənələri və XVII əsr realizminin əlamətləri. «Simplisissumus»da barokko təsiri.

XVII əsrin sonlarında alman ədəbiyyatında cərəyanlar arasında gedən mübarizə. Saray klassisisizminin böhranı. Ədəbiyyatda bürger-nəsihət (X.Veyze və onun məktəbi) ilə demokratik-plebey (İ.X.Günter) cərəyanları. Q.F.Leybnits və X.Tomaziusun elmi-fəlsəfi fəaliyyəti. F.Merinqin onlara verdiyi qiymət. Maarifçilik dövrü ərəfəsindəki təmayüllər.

F. Bekon və onun XVII əsr ingilis ədəbiyyatında tutduğu yer. U. Şekspir ənənələrinin əhəmiyyəti (B.Conson, C.Milton). Ben Consonun yaradıcılığı və ingilis klassisizminin ilkin mərhələsində özünəməxsusluğu. «Metafizik poeziya». Con Donun yaradıcılığı və ingilis ədəbiyyatında barokko.

Con Milton – ingilis ədəbiyyatının ən böyük şairi və publisisti kimi. Onun yaradıcılıq yolunun dövrləşdirilməsi. İlkin yaradıcılığı. Miltonun poeziyası. 40-50-ci illərin publisistikası. Söz azadlğının müdafiəsi («Areopagitika»), kralın edamına haqq qazandırılması («Büt mübarizi»), respublikanın müdafiəsi («İngilis xalqının müdafiəsi»). C. «İtirilmiş cənnət» poeması. «Qaytarılmış cənnət» poeması və onun ingilis ədəbiyyatının inkişafındakı əhəmiyyəti. Poemanın siyasi ideyaları. Miltonun «Mübariz Samson» faciəsində klassizm xüsusiyyətləri.

C. Lilbernin publisistikası, D. Unistenlinin risalələri. C. Draydenin yaradıcılığı. C. Benyan yaradıcılığında Bərpa dövrü zadəganlarının ifşası və burjua münasibətlərinin tənqidi («Zəvvarın səyahəti»). S.Batlerin «Hudibras» əsəri və onun ingilis satirasının inkişafındakı əhəmiyyəti. İngilis ədəbiyyatında Maarifçilik ərəfəsi təmayüllər.

22. **XVIII əsr Avropa ədəbiyyatı**. İngilis ədəbiyyatı. Qərbi Avropa Maarifçilik hərəkatının əhəmiyyəti. XVIII əsrdə Qərbi Avropada fəlsəfi cərəyanlar. Maarifçilik dövrü estetikasının rasionalist və realist təmayülləri. Maarifçilik hərəkatı və slavyan xalqlarının

ədəbiyyatı. Rus Maarifçiliyi. M.F.Axundov Qərb Maarifçiliyi haqqında. Qərbi Avropa Maarifçilik hərəkatı və Azərbaycan.

Maarifçilik hərəkatı dövründə Qərbi Avropa bədii ədəbiyyatında başlıca ədəbi cərəyanlar (sentimentalizm, önromantizm). Maarifçilik hərəkatının əsas inkişaf mərhələləri: İngiltərədə, Fransada və Almaniyada Maarifçilik ədəbiyyatının yüksəlişi.

Sentimentalizm və önromantizm ədəbi cərəyanlarının yaranması və əsas xüsusiyyəiləri. Əsrin sonlarında ədəbi cərəyanların mübarizəsi. XIX əsrin əvvəlində romantizm və tənqidi realizm ədəbiyyatında Maarifçilik dövrü ədəbiyyatı ənənələri.

Conatan Svift. «Kitabların döyüşü», «Çəllək nağılı» əsərləri. Sviftin publisistikası. İrlandiya azadlıq hərəkatı və «Mahudçunun məktubları». «Qulliverin səyahəti» romanı. Svift fantastikasının realist əsasları. Sfivt və Azərbaycan ədəbiyyatı.

Daniel Defo. Defo poeziyasının ictimai məzmunu. Romanlarının ümumi səciyyəsi. «Robinzon Kruzo» romanının dünya ədəbiyyatı tarixində tutduğu yer. Dünya ədəbiyyatında robinzionada mövzusu. Defo və Azərbaycan ədəbiyyatı.

Semuel Riçardson ailə-məişət romanının yaradıcısı kimi. İngilis Maarifçilik romanında realist istiqamətin inkişafı (H.Fildinq və T.Smollet). İngilis Maarifçilik romanında müxtəlif meyllər.

Henri Fildinq. Fildinqin yaradıcılıq yolunun mərhələlərə bölünməsi. Fildinqin ilk əsərlərində Sviftin satirik ənənələrinin davamı («Conatan Uayldın macərası»). «Cozef Endrüsün macərası», «Tapdıq Tom Consun macərası»). Fildinqin Riçarsonla polemikası. Tom Cons surəti. «Ameliya» romanı.

Tobayas Smolletin yaradıcılığı. «Roderik Rendomun macəraları», «Periqrin Piklin macəraları» romanları. Smolletin yaradıcılığında sentimentalizm əlamətləri («Hemfri Kliker» romanı).

İngilis sentimentalizmi. E.Yunqun «Orijinal əsərlər haqqında təcrübə» kitabı ilkin ingilis maarifçiliyinin rasionalist və klassisist əsaslarına qarşı çevrilmiş sentimentalizmin poetikası kimi.

Sentimentalizm poeziyası (D.Tomson, T.Qrey, E.Yunq). Təbiət mövzusu. Sentimentalistlərin lirikasında psixologizm meylləri. D.Makferson və onun «Ossianın nəğmələri». T.Çettertonun lirikası.

Oliver Qoldsmit. Onun dünyagörüşündə demokratik cəhətlər. «Tərk edilmiş kənd», «Vekfild ruhanisi» romanları. İngilis müasir mühitinin tənqidi. Qoldsmit baxımından ingilis həyatının ictimai təzadları. İngilis zadəganlığına qarşı satira («Səhvlər gecəsi»).

Lourens Stern. Sternin ədəbi novatorluğu. «Tristram Şendi» və «Sentimental səyahət» romanları. Sternin romanlarında xalq problemi. D.Yumun fəlsəfəsinin təsiri. Sternin 40-50-ci illərin romançıları ilə mübahisəsi. «Tristram Şendi» romanından «Sentimntal səyahıt» romanına doğru Sternin roman yaradıcılığında inkişaf xüsusiyyətləri.

Önromantizm. Q.Uolpol, U.Bekford, A.Redklif və S.Lüis. «Qotik roman» və onun əhəmiyyəti. İngilis yakobin romanı problemi.

Maarifçilik və XVIII əsrin sonlarında inqilabi hərəkat. Uilyam Bleykin və xalq şairi R.Börnsün yaradıcılığında önromantizm əlamətləri. Börnsün realizmə doğru yolu. Onun folklor əsası. «Şən dilənçilər» kantatasının üsyanrkar pafosu. Börnsün yüksək poetik ustalığı.

23. XVIII əsr fransız ədəbiyyatı. XVIII əsr fransız ədəbiyyatının ümumi səciyyəsi. İnqilabçı demokrat Jan Melyenin «Vəsiyyət» əsəri.

A.Lesajın yaradıcılıq yolu. «Ağasının rəqibi Krispi» və «Türkare» komediyalarında, eləcə də «Topal şeytan» və «Jil Blaz» romanları. A.F.Prevonun yaradıclığının təkamülü. Prevonun «Manon Lesko» romanı XVIII əsr fransız ədəbiyyatının inkişafında mühüm mərhələ kimi.

Ş.Monteskyönün yaradıcılığı. «Fars məktubları» Ş.Monteskyönün «Romalıların yüksəklişi və süqutunun səbəbləri haqqında düşüncələr» əsəri. Ş.Monteskyönün «Qanunların ruhuı» əsərində aparıcı ideya meylləri.

Volterin yaradıcılıq yolunun dövrlərə bölünməsi. Volterin ictimai-siyasi görüşləri. Bədii yaradıcılığının təkamülü. «Anriada» («Henriada») poeması. Volterin teatra gətirdiyi yeniliklər. «Orlean bakirəsi» kilsə və feodalizm əleyhinə çevrilmiş əsər kimi.

Volterin yaradıcılıq təkamülünün fəlsəfi (Şərq) povestlərində əksi. Fəlsəfi povestlərin əsas ideya motivləri. Volterin povestlərindəki satiranın xüsusiyyətləri və müsbət qəhrəman problemi. «Kandid»in ideya məzmunu və bədii formasının təhlili. «Kandid»in müəllifi kimi Volterin yaradıcılıq metodunda rasionalizm əlamətləri. «Zadiq» əsərinin bədii təhlili. «Sadəlövh» povestində qəhrəmanın səciyyəsi və ifşaçılıq pafosu. Volterin dramaturgiyası. «Məhəmməd» əsəri haqqında. Volterin fəlsəfi (Şərq) povestlərinin tarixi-ədəbi əhəmiyyəti. Volter və Azərbaycan.

Deni Didro və ensiklopediyaçıların (K.A.Helvetsi, P.A.Holbax, J.L.Dalamber) dünyagörüşünün ümumi xarakteristikası. Didro teatr, aktyor və təsviri sənət haqqında. Didronun dramaturgiya nəzəriyyəsi.

Didronun yaradıcılıq irsində «O, yaxşıdır, ya pis?» pyesinin tutduğu yer. «Rahibə» povesti Maarifçilik realizminin nümunəsi kimi. «Ramonun qardaşı oğlu» – əsərinin tdeya-məzmun təhlili.

J.-J.Russo yaradıcılığının dövrlərə bölünməsi. Russo sentimentalizitnin özünəməxsusluğu. Russonun ictimai-siyasi və tarixi görüşləri. Russonun «Mühakimələr» əsərinin ideya məzmunu. «İctimai müqavilə» əsərində xalq hökmranlığı nəzəriyyəsi. «Emil» pedaqoji romanı. «Yeni Eloiza» romanında bərabərsizliyə qarşı etirazın bədii həlli. Sen Pre və Yuliya surətləri. «Yeni Eloiza» Russonun sentimentalizminin dolğun nümunəsi kimi. «Yeni Eloiza»nın Avropa ədəbiyyatında roman janrının sonrakı inkişafında əhəmiyyəti.

Russonun «Tövbə» əsəri ədəbiyyatın yeni janrı kimi. «Tövbə» əsərində XVIII əsrdə fransız cəmiyyətinin təsviri. «Tövbə»nin fransız ədəbiyyatında avtobioqrafik roman janrının gələcək inkişafına təsiri.

1789-cu il inqilabı ərəfəsində fransız ədəbiyyatındakı cərəyanların mübarizəsi. Bernarden de Sen-Per – fransız sentimentalist ədəbiyyatının mühafizəkar cərəyanının nümayəndəsi kimi («Pol və Birginiya») Russonun burjua-demokratik davamçıları – Mersye və de la Bretonn. Mersyenin «Paris lövhələri» oçerklərinin tarixi-ədəbi əhəmiyyəti. Dramaturq Mersyenin metodundakı səciyyəvi cəhətlər.

Bomarşenin yaradıcılığının inkişaf mərhələləri. Bomarşenin estetik görüşləri («Ejeni» pyesinə ön söz). Fiqaro haqqında trilogiya. «Sevilya bərbəri». «Fiqaronun toyu» əsərinin siyasi və bədii əhəmiyyəti. XVIII əsr realist komediyasının inkişafında Bomarşenin tutduğu yer. 90-cı illərdə Bomarşenin yaradıcılıq böhranı. «Cinayətkar ana».

Ş. lö Ləklönün «Təhlükəli əlaqələr» əsərində zadəgan cəmiyyətinin çürüklüyünün və pozğunluğunun ifşası. «Təhlükəli əlaqələr» maarifçilik realizmi əsəri kimi.

A.Şenyenin ideya və yaradıcılıq təkamülü. Onun yaratdığı "neoklassisizm"in xüsusiyyətləri. M.Şenyenin drammaturgiyasının burjua-demokratik xarakteri.

Fransada inqilabi-demokratik hərəkatın xalq poeziyasında əks olunması ("Marselyeza", "Karmanyol", "Yürüş mahnısı"). XVIII əsrin 90-cı illərində fransız ədəbiyyatında inqilabi romantizmin yaranması (P.S.Marşalın yaradıcılığı).

İtaliya, ABŞ ədəbiyyatları. İtalyan Maarifçilik ədəbiyyatının xüsusiyyətləri.

Karlo Qoldoni – XVIII əsr İtaliyanın ən görkəmli maarifçi yazıçısı kimi. Qoldoni yaradıcılığının dövrlərə bölünməsi. Onun XVIII əsr İtaliya ədəbiyyatındakı antirealist cərəyanlara qarşı mübarizəsi. Qoldoni – İtaliya teatrının islahatçısı və milli italyan dramaturgiyasının banisi kimi.

XVIII əsr italyan mühitinin Qoldoni yaradıcılığında inikası. «İki ağanın bir nökəri», «Qudurğanlar», «Kənd meyxanasının sahi-bəsi». Qoldoninin bədii metoduna və dünyagörüşünə xas olan ziddiyyətlər. XVIII əsr Qərbi Avropa komediyasının inkişafında Qoldoni yaradıcılığının əhəmiyyəti.

Karlo Qotsinin italyan ədəbiyyatındakı yeri. «Kraliça Turandot». XVIII əsrin sonlarında ədəbiyyatda inqilabi klassisizmin inkişafı (V.Alfyeri). Romantizm sənətinin ərəfə dövrü.

XVIII əsr Amerika ədəbiyyatı. İstiqlaliyyət uğrunda müharibə və ABŞ-ın yaranması. Bu proseslərin ədəbiyyatındakı əksi (publisistika, poeziya).

ABŞ aborigen mədəniyyəti və ədəbiyyatı. Milli amerikan ədəbiyyatının formalaşmağa başlaması. Avropa ənənələri və maarifçilik fəlsəfəsinin ABŞ ədəbiyyatı üçün əhəmiyyəti.

ABŞ ədəbiyyatında Maarifçilik ənənələrinin yaranması. Şimali Amerikanın ilk maarifçiləri – B.Franklinin, T.Peynin, T.Ceffersonun fəaliyyəti və publisistikası. Onların ABŞ ədəbiyyatında tutduqları yer. ABŞ-ın ilk milli şairi F.Freonun yaradıcılığı. Frenonun poeziyası – Amerika inqilabı və onunla əlaqədar olan maarifçiliyə cavab kimi. Onun yaradıcılığında klassisizm ilə romantizm meyllərinin nisbəti.

24. Alman ədəbiyyatı. XVIII əsr alman ədəbiyyatı. Klassisizmin ik mərhələsi. Y.X.Qotşed rasionalizm cərəyanının bariz nümayəndəsi kimi. Mötədil bürger maarifçiliyinin başqa nümayəndələri (Bodmer, Kellert). Klassisizmin normativ poetikasına qarşı ilkin müxalifət.

İlkin maarifçilik satirası. H.L.Liskov ilə Rabenerin satirası. Şnabelin robinzonada səpkisində yazılmış «Felzenburq adası» utopik romanı.

Klassisizm estetikasının inkişafı. Vinkelmanın estetik nəzəriyyəsi və onun alman ədəbiyyatının inkişafı üçün əhəmiyyəti.

H.E.Lessinq – böyük alman maarifçisi kimi. F.Merinqin «Lessinq haqqında əfsanə» kitabının əhəmiyyəti. Lessinqin estetik görüşlərinin formalaşması və inkişafı. «Ədəbi məktublar», «Laokoon» və «Hamburq dramaturgiyası».

Lessinqin dramaturgiyası. «Minna fon Barnhelm» əsərində Yeddiillik müharibə dövründə alman həyatının real mənzərəsi. Xalq nümayəndələrinin surətləri. «Emiliya Qalotti» – alman mütləqiyyətinin özbaşınalığına qarşı etiraz. Bu əsərin əhəmiyyəti. «Müdrik Natan» dramının Maarifçilik istiqaməti. Lessinqin şeir sahəsində islahatı. Lessinq yaradıcılığının alman dilinin inkişafı üçün əhəmiyyəti.

Fridrix Klopştok və sentimentalizm ədəbiyyatının təşəkkülü. Klopştokun məhdiyyələri və tarixi dramları. Onun «Messiya» poemasının fəlsəfəsindəki ziddiyyət. Klopştokun sonralar yazdığı inqilabi məhdudiyyələri.

Vilandın ədəbi fəaliyyəti. Viland – Şekspirin tərcüməçisi kimi. Viland – tərbiyəvi («Aqaton») və ictimai-fəlsəfi («Abderitlər») romanlarının yaradıcısı kimi. Viland satirasının xüsusiyyətləri. «Oberon» poeması və önromantizm problemi.

Almaniyada «Şturm und Dranq» («Fırtına və təzyiq») hərəkatı ədəbiyyatı. Şturmer hərəkatında müxtəlif cərəyanlar. «Şturm und draq» estetikasının inkişaf mərhələləri. Şturmerlər və sentimentalizm. Şturmenlərin ədəbi proqramı. «Reyn qrupu». «Hettingen meşəsi», «Şvab dəstəsi» və başqa şairlərin yaradıcılığında ştürmerlik ənənələri.

Herder şturmer hərəkatının nəzəriyyəçisi və ilhamçısı kimi. Herderin əsərlərində klassisizmə münasibət. Herderin tarixi və humanist konsepsiyası. Herderin estetik görüşlərində ziddiyyət. Herderin folklorşünaslığın inkişafındakı xidmətləri. «Xalq səsləri mahnılarda». Herderin əsərlərində («Kalliqona») realizm konsepsiyası.

Y.Lens və M.Klingerin dramaturgiyasının ictimai və bədii xüsusiyyətləri. Klingerin Faust haqqında romanı, onun problematikası və üslub xüsusiyyətləri. Q.A.Bürgerin və İ.Q.Fossun lirikası. X.F.D.Şubartin publisistikası. Y.F.Şillerin «Şturm und dranq» hərəkatı ədəbiyyatında tutduğu yer.

H.K.Lixtenberqin aforizmlərinin xüsusiyyəti və əhəmiyyəti. Sentimental-yumoristik və satirik romanın inkişafı meylləri.

Alman Maarifçiliyinin son dövrü ədəbiyyatının 1789-1794-cü illər fransız inqilabı ilə əlaqəsi. Höte və Şiller o dövrdə. Radikal və inqilabi publisistikasının inkişafı (H.Forster, Radikal və inqilabi publi-sistikasının inkişafı (H.Forster, İ.H.Zemye və başqaları). XVIII əsrin sonları – XIX əsrin əvvəllərində alman ədəbiyyatında maarifçilik meylləri. Maarifçilik və romantizm.

Gete və Şiller – XVIII əsrin son qərinəsində və XIX əsrin başlanğıcında alman ədəbiyyatının əsas nümayəndələri kimi. Höte və Şiller yaradıcılığında xəlqilik problemi.

Yohan Volfhanq Gete. Müasir alman mədəniyyəti xadimləri (T.Mann, Y.Bexer) və Höte yaradıcılığının dövrlərə bölünməsi. Hötenin ədəbi fəaliyyətində Şturmer dövrünün

xüsusiyyətləri. İlk dövrdə Hötenin estetikası («Şekspir gününə və b.», «Gets fon Berlihingen» tarixi dramında üsyankarlıq motivlərinin xüsusiyyətləri. Gənc Hötenin şekspirçiliyi. «Gets fon Berlihingen» dramında kəndli hərəkatı mövzusu. Dramın bədii novatorluğu. «Prometey».

«Gənc Verterin iztirabları» romanı Hötenin şturmer ovqatının ifadəsi kimi. Verter surəti.

Höte yaradıcılığında Şərq. Hötenin «Qərb-Şərq divanı» əsərinin təhlili. Hötenin siyasi dramaturgiyası («Üsyankarlar») onun parodiya xüsusiyyəti. «German və Doroteya» poemasının xüsusiyyətləri. Şillerin «Zəng haqqında mahnı» əsəri. Fransız inqilabi ideyalarının hər iki yazıçının yaradıcılığına göstərdiyi müsbət təsir. «Karl Qrün. İnsan baxımından Höte haqqında» əsəri.

Höte 80-ci illərdə. Höte yaradıcılığında «Veymar klassisizmi» problemi.

Hötenin «Vilhelm Meysterin təhsil illəri» romanı. Tərbiyəvi roman problemi. Romanda ictimai və əxlaqi problemlər. Romançı – Hötenin yaradıcılıq metodu problemi. Hötenin son dövrlərdəki lirikası. Höte universalizmi problemi.

«Faust» poeması. Əsərin yaranma tarixi. «Faust» – XVIII-XIX əsrlər gerçəkliyinin bədii ümumiləşdirilməsi kimi. Faust surəti, onun fəlsəfi və bədii əhəmiyyəti, onun təkamülü. Poemanın əsas personajları (Faust, Mefistofel, Marqarita, Yelena, Vaqner və başqaları). Faciənin fəlsəfi problematikası. Finalın nikbin xüsusiyyəti. Azərbaycan ədəbiyyatşünasları «Faust» haqqında. Müasir alman, dünya tənqidinin «Faust»a verdiyi qiymət. Höte və Azərbaycan. Hötenin əsərləri Azərbaycan dilində.

Fridrix Şiller. Şillerin həyat və yaradıcılığı. Şiller yaradıcılığının birinci dövrü. Şillerin şturmer dövrü. Şillerin ilkin dramaturgiyasının ideya istiqaməti. Şillerin şturmer dramaturgiyasının bədii metodunun xüsusiyyətləri. «Don Karlos» Şiller dramaturgiyasının inkişafındakı dönüşü göstərən bir əsər kimi. Şillerin «Qaçaqlar», «Fiyeskonun Genuyada sui-qəsdi», «Məkr və məhəbbət» əsərləri. «Mariya Stüart» əsərinin təhlili. «Orlean bakirəsi» əsəri. Şillerin lirikası.

Şiller dramlarında realizm və romantizm. Vallenşteyn haqqında trilogiya, «Mariya Stüart», «Orlean qızı». Bu əsərlərdə tarixilik və müasirlik. «Vilhelm Tell» istibdala qarşı çevrilmiş dram kimi. Şillerin dramları Azərbaycan səhnəsində. Şiller Azərbaycan tənqidində.

Alman və dünya ədəbiyyatının inkişafında Höte və Şiller yaradıcılığının əhəmiyyəti.

25. **XIX əsr ədəbiyyatı**. Almaniyada romantizm. Fransa Burjua inqilabı, Romantizmin və tənqidi realizmin bu dövrdəki ədəbiyyatda əsas yaradıcı metod və cərəyan kimi yeri. Romantizmin və tənqidi realizmin yaranmasının və inkişafının əsas qanunauyğunluqları. Onların bir-biri ilə əlaqəsi. Klassik ədəbiyyatın xəlqiliyi problemi.

Romantizm. Romantizmin yaranması amilləri: a) sosial-siyasi, b) estetik amillər. Romantizmin fəlsəfi əsasları. Romantizmdə üslub və metod müxtəlifliyi.

XVIII əsrin 90-cı illərində və XIX əsrin birinci on illiklərində alman ədəbiyyatında ədəbi çərəyanlarının mübarizəsi. Bu dövrün ədəbi prosesində İ.V.Höte və F.Şillerin mövqeyi. Alman romantizm ədəbi çərəyanında istiqamət və yaradıcılıq üslublarının mübarizəsi. Alman romantizminin fəlsəfi əsasları. Şellinq, Şlegel qardaşları və Şleyermaher.

Alman romantizminin birinci mərhələsi. Alman romantiklərin İen dərnəyi. F.Şlegelin estetik nəzəriyyələri. Novalis və L.Tikin yaradıcılıq yolu. İen romantiklərinin estetikasının pozitiv əhəmiyyəti. İen romantizminin estetikasının beynəlxalq əhəmiyyəti.

Alman ədəbiyyatında inqilabi romantizmin yaranması. F.Helderlinin yaradıcılığı (lirikası, "Giperion" romanı, "Empedoklun ölümü" faciəsi). Onun yaradıcılığında klassisizmlə romantizmin nisbəti. Onun "Zibengez" romanı.

Alman romantizminin ikinci inkişaf mərhələsi. Heydelberq romantikləri dərnəyi (L.A.Arnim, K.Brentano və başqaları). Heydelberq dərnəyi yazıçılarında milli folklora maraq və bu marağın təzahür edilməsinin xarakteri. Xalq nəğmələrinin nəşr olunmasının əhəmiyyəti. ("Oğlanın sehirli buynuzu" toplusu). Alman ədəbiyyatı tarixində Qrimm qardaşlarının mövqeyi. Onların alman xalq nağılları külliyyatı. Bu işdə Qrimm qardaşlarının apardığı filoloji axtarışların xarakteri və əhəmiyyəti. Şvab romantikləri qrupu. L.Uland və V.Haufun yaradıcılığının əhəmiyyəti.

Kleyst. Onun dünyagörüşündə və yaradıcılığında ziddiyyətlər. Kleyst dramaturgiyasında faciəvilik problemləri ("Şroffenşteyn ailəsi", "Pentesileya", "Hamburq şahzadəsi"), "Sınmış səhəng" komediyası. "Mixael Kolxass" povesti. Kleystin novellistikası. Kleyst yaradıcılıq metodunun xüsusiyyətləri. Kleystin tarixi dramları.

E.T.-A.Hofmanın yaradıcılığı. "Qızılgül» novellası, "İblisin həyat cövhərləri" romanı və başqaları. "Serapion qardaşları" silsiləsinin əsas meylləri. Hofman romantikasında sosial satira ("Balaca Saxes", "Pişik Murrun həyata baxışları", "Birələr hökmdarı"). Yazıçının bəzi əsərlərində realistik meyllər ("Künc pəncərəsi"). Hofman və Azərbaycan ədəbiyyatı.

A.Şamissonun yaradıcılıq metodu. "Petr Şlemilin qeyri-adi macəraları" povestində ictimai-tənqidi meyllər. Şamissonun lirikasında sosial mövzular. Şamissonun yaradıcılığına xalq poeziyasının təsiri. "Didərginlər" poeması. H.Hayne və T.Mann Şamisso haqqında.

26. İngiltərədə romantizm. XIX əsrin əvvəlində İngiltərədə ədəbi cərəyanların mübarizəsi. 90-cı illərin əvvəlində İngiltərədə "Müxbirlər cəmiyyətləri" və onların əhəmiyyəti.

U.Qodvin. İngilis ədəbiyyatı tarixində onun mövqeyi. "Siyasi ədalət" risaləsi. "Kaleb Vilyams"- sosial roman kimi. Romanda qotika ünsürləri. U.Bleykin poeziyası və onun ingilis ədəbiyyatı tarixində mövqeyi.

"Antiyakobin müharibəsi". İngilis ədəbiyyatında romantizmin fərqli istiqamətlərin təşəkkülü (Vordsvort, Kolric, Sauti, Mur). Leykist şairlərin yaradıcılığının təkamülü. Vordsvort ilə Kolricin "Lirik balladalar" məcmuəsinə ön söz – ingilis mühafizəkar romantizminin estetik manifesti kimi. Leykçilərin poeziyasında ictimai hadisələri əks etdirməyin spesifikası. Kolricin "Qoca dənizçi", "Kristabel" əsərləri. Sautinin balladları. Bayronun leykçilərə verdiyi qiymət.

İnqilabi romantizmin təşəkkülü. C.H.Bayron və P.B.Şelli – XIX əsrin birinci rübü ingilis inqilabi-romantik ədəbiyyatının ən böyük yazıçıları kimi. Azərbaycan tənqidi fikri Bayron və Şelli haqqında mütərəqqi romantiklər çartist mətbuatında.

C.H.Bayron dünyagörüşünün formalaşması və inkişafı. Bayronun müasir ingilis ədəbiyyatının vəziyyətinə qarşı tənqidi baxışları ("İngilis bardları və şotland icmalçıları"). "Çayld Haroldun ziyarəti" poemasının bədii və siyasi əhəmiyyəti. Bayronizm.

Bayronun luddist hərəkatına münasibəti. "Şərq poemaları". «Çayld Haroldun ziyarəti» poemasının təhlili. Bu poemanın baş qəhrəmanının xəyalpərəstliyi və "Şərq poemaları"ndakı ("Gavur", "Korsar", "Lara") üsyankar-qəhrəman arasındakı zidiyyətlər. Bayronun lirik-epik poema janrı. "Yəhudi melodiyaları"nın bədii və siyasi əhəmiyyəti. «Qabil» və «Şilyon məhbuus» poemaları ıə «Prometey» şeirmnmn təhlili.

"Manfred" poemasının dramatik fəlsəfi xarakteri. "Qabil" misteriyasının ideya-siyasi və bədii əhəmiyyəti. Qiyamçı Qabilin bədii obrazı. Bayronun "Marino Falyero", "İki Foskari", "Sardanapal" dramları. Bayronun siyasi satirası "müqəddəs ittifaqa" qarşı mübarizədə silah ("Məhkəmənin görünüşü", "İrland avatarası", "Bürünc əsr"). "Beppe" poemasında realistik meyllər. "Don Juan" mənzum romanı. Onun yaranma tarixi. "Don Juan"da tipikləşdirmə metodları. Kompozisiyanın və şeirin xüsusiyyətləri. Bayronun yaradıcılığında bəşəri mövzu. Bayronizm cərəyanı. Bayron və Azərbaycan ədəbiyyatı. Bayronun Azərbaycan dilinə tərcümələri və onun haqqında tədqiqatlar.

P.B.Şellinin yaradıcılığı. "Poeziyanın müdafiə olunması", "Azad olmuş Prometey" və "İslamın üsyanı"na müqəddimələr. "Kraliça Mab" poemasında kapitalizmin və istismarın tənqidi. "İslamın üsyanı" və "Azad olmuş Prometey" romantik poemaları. Şelli obrazlarının xarakteri. İqilabi zorakılıq probleminin qoyuluşu ("İslamın üsyanı", "Çençi", "I Karl"). "Anarxiya maskaradı"nda ingilis irticasının özbaşınalığının ifşa edilməsi. Şelli yaradıcılığında realist ünsürlərin güclənməsi ("Çençi" faciəsi).

T.Mur. Yaradıcılığının inkişaf mərhələləri. "İrland melodiyaları". Murun satirik əsərləri: "Parisdə Fadc ailəsi" və "Müqəddəs İttifaq üçün təmsil". Mur və Bayron.

C.Kitsin poeziyası. Kitsin özünəməxsus poetik tərzi. Kitsin yaradıcılığında mütərəqqi meyllər.

V.Skott. Skottun ilkin poetik yaradıcılıq dövrü. Skottun ballada və poemaları. Romançı-Skottun estetik prinsipləri, burada romantik və reallıq rüşeymlərinin üzlaşması. Yazıçının

dünyagörüşündə və yaradıcılıq üslubunda ziddiyyətlər. Yaradıcılığının inkişaf mərhələləri. Skottun "Şotland" romanları ("Ueverli", "Edinburq zindanı", "Rob Roy"). Azərbaycan tənqidi fikri Skottun "şotland" romanları haqqında. "Kventin Dorvard", "Ayvenqo" – Orta əsrlər haqqında silsilə romanlarının səciyyəvi nümunələridir. Burjua inqilabı haqqında romanlar ("Puritanlar", "Vudstok"). "Puritanlar" romanında hakim siniflərə qarşı mübarizəyə haqq qazandırması. "Kventin Dorvard" romanı.

27. Fransada romantizm. F.R.Şatobrian. Şatobrianın Maarifçilik ideologiyasına qarşı mübarizəsi ("İnqilablar haqqında mülahizə", "Xaçpərəstliyin ruhu"), russoizm ideyaları ilə mübahisə. "Rene" və "Atala" povestləri. Bu əsərlərin bədii xüsusiyyətləri.

J. de Stal romantizm ədəbiyyatının və incəsənətinin nəzəriyyəçisi kimi ("Ədəbiyyat və onun ictimai həyatla bağlılığı haqqında", "Almaniya haqqında"). "Delfina" və "Korinna" romanları. B.Konstal və onun "Adolf" romanı.

Bərpa illərində romantizm. A. de Lamartinin poeziyası. Lamartin yaradıcılığının tarixi inkişafı. Qərb ədəbiyyatşünaslığında Lamartin poeziyasının xüsusiyyətlərinin səciyyəvi təsviri. Ş.Nodye və onun "Jan Sboqar" romanı.

V.Hüqo. Fransız və Avropa tənqidində ona verilən qiymət. Azərbaycan ədəbiyyatşünaslığı Hüqo haqqında. Avropa tənqidi Hüqonun dünyagörüşündəki ziddiyyətlər haqqında. Hüqonun yaradıcılıq yolunun dövrləşdirilməsi. 20-ci illərin ortalarında onun yaradıcılığında demokratik meyllərin artması. Hüqonun ilk lirik yaradıcılığı. "Kromvel" əsərnə ya¬zıl¬mış müqəddimə mütərəqqi romantizmin manifestidir. Hüqonun dramaturgiyası. "Ernanilər" pyesi. Hüqonun 30-cu illərdə yazdığı dramlarında monarxiya əleyhinə mübarizə ("Kral əylənir", "Rui Blaz"). "Paris Notrdam kilsəsi" romanında feodal irticasının tənqidi. "Səfillər" romanının ideya-bədii təhlili. "93-cü il" və "Dəniz zəhmətkeşləri" romanları. V.Hüqonun ikinci imperiyaya qarşı mübarizəsi ("İntiqam", "Bal Napoleon"). Dünya klassikləri 50-60-cı ilələrdə Hüqo haqqında. "Səfillər" romanı. Kapitalizm quruluşunun etik tənqidi, romanda inqilabi mübarizə mövzusu. "Dəniz əməkçiləri" və "Gülən adam" romanlarının əhəmiyyəti. Hüqonun romantik metodunun sonrakı dəyişkənliyi. "Qorxulu il" şeirlər toplusu. Hüqo və Paris Kommunası. "93-cü il" romanı.

F.Sent-Bövün yaradıcılığı. Tənqidi fikrin inkişafı. Sent-Böv və V.Hüqo.

Azərbaycan tənqidi V.Hüqo haqqında. V.Hüqo əsərlərinin Azərbaycan dilinə tərcümələri. V.Hüqo Azərbaycan tənqidində.

J.Sand. J.Sandın həyat və yaradıcılığı. J.Sandın "İndiana", "Konsuella" və "Tilsim" romanları. J.Sand Azərbaycanda. J.Sand və «Koroğlu» dastanı.

Yazıçınını yaradıcılıq mərhələlərinin inkişafı. Sandın ilkin romanları ("İndiana") "Oras" romanı. Sand və utopik roman problemi. 1848-ci il i ilə əlaqədar Sandın küskünlüyü və yaradıcılığının son mərhələsi. 1848-ci ildən sonra J.Sandın estetik mövqeyi. Sosial-utopik romanın inkişaf yolları (Kabe Sü).

A.Dümanın həyat və yaradıcılığı. Üç Düma. Ata Dümanın romanlarının özünəməxsus xüsusiyyətləri. «Qraf Monto Kristo», «Üç müşketyor», «Qrafinya de Monsoro», «İyirmi il sonra» və b. romanlarının təhlili. Bu romanların janr və üslub xüsusiyyətləri.

E.Syü yaradıcılığı. Oğul Düma və onun romanları.

Gecikmiş romantizm. A.Müssenin yaradıcılıq yolu. Onun estetik mövqeyi. Müsse – lirik şair kimi. Müsse teatrı. "Əsrin oğlunun etirafı" romanı.

A. de Vinyi. Yaradıcılığının inkişaf mərhələləri. Yazıçının estetik prinsipləri. Vinyinin poeziyası. "Sen Mar" tarixi romanı, Avropa tənqidçiləri Vinyinin burjua cəmiyyətinə qarşı romantik etirazı haqqında. Vinyinin şərhində sənətkarın faciəsi ("Stello" və "Çatterton"). Vinyi nəsrinin son dövrü ("Əskərin asılılığı və əzaməti"). Aleksandr Dümanın həyat və yaradıcılığı. Dümanın "Qraf Monte Kristo", "Üç müşketyor", "Kraliça Marqo" romanları. Teofil Qotyenin poeziyası. Nəsr əsərləri.

28. İtaliya, Polşa və İtaliya ədəbiyyatlarında romantizm. V. Alfyerinin yaradıcılığı. A.Mandzoni və C.Leopardinin yaradıcılığı.

Polşa rimantizmi. A.Miskeviçin və Y.Slovatskinin romantik yaradıcılığı.

29. Fransada tənqidi realizm. Realist estetikasının yaranmasında Stendalın "Rasin və Şekspir" traktatının rolu. A.Stendal. Dünyagörüşünün formalaşması və inkişafı. "Rasin və Şekspir". 20-ci illərdə Stendalın ictimai-siyasi və ədəbi mübarizədə mövqeyi. "Qırmızı və Qara" və "Lüsyen Löven" romanları, onların siyasi kəskinliyi və aktuallığı. Qəhrəman obrazının təkamülü. Kompozisiya və üslub xüsusiyyətləri.

Folklorşünaslıq - mifologiya və şifahi ədəbiyyatın mənşəyi, inkişaf mərhələləri, poetikası, toplanılıb nəşr edilməsi tarixindən bəhs edən bir elm kimi. Avropada folklorşünaslıq elmini yaradan ilkin zəmin. Avropa intibahı dövründə folklorun yazıya alınma təşəbbüsləri. Folklorşünaslıq elmində meydana gələn bəzi nəzəriyyələr haqqında .

**Mifoloji nəzəriyyə.** Mifoloji nəzəriyyə folklorşünaslığın ilk elmi cərəyanı kimi. Yakob və Vilhelm Qrimm qardaşları mifoloji nəzəriyyənin baniləri kimi. Müqayisəli dilçiliyin metodologiyasının Y.Qrimm tərəfindən folklor araşdırmalarında ilk dəfə tətbiq edilməsi. Xalq poeziyasının ilahi mənşəyə malik olması, folklor janrlarının miflərdən yaranması haqqında fikir və mülahizələr. Süjet oxşarlıqlarının əsas səbəbinin həmin xalqların qədim qohumluğu və ilkin mif qaynağı - “pramif”lə əlaqələndirilməsi. Nəzəriyyənin banilərinin bütün folklor süjetlərində əsatir izi axtarmaları. Bütün oxşarlıqların təməlində qan qohumluğunun durması.

Y.Qrimmin «Alman mifologiyası» (1835) əsəri. Qrimm qardaşlarının ardıcılları. Müqayisəli folklorşünaslığın əsasının qoyulması.

**İqtibas**, **tarixi-mədəni, səyyar süjetlər yaxud T.Benfey nəzəriyyəsi**. Nəzəriyyənin meydana çıxmasında alman şərqşünası T.Benfeyin rolu. «Kəlilə və Dimnə» // "Pançatantra" əsərinin tərcüməsi və ona T.Benfeyin yazdığı geniş müqəddimə (1859). Nəzəriyyənin mahiyyəti. T.Benfeyin süjet oxşarlıqlarının səbəbini üç böyük hadisə - İskəndər istilası, ərəb istilası və səlib yürüşləri ilə bağlaması. Süjetlərin üç yol vasitəsilə Şərqdən Qərb ölkələrinə yayılması barədə mülahizə. Nəzəriyyənin Rusiyada olan davamçıları (V.Miller, V.V.Stasov, Q.N.Potanin və b.).

**Fin məktəbi, yaxud tarixi-coğrafi nəzəriyyə.** Nəzəriyyənin yaradıcıları: K.Kroon, Y.Kroon və onların yaradıcılığı. A.Aarne. Nağılların mövzu və məzmuna görə təsnifi. Dünyanı gəzən səyyar süjetlər və dünya xalqlarının şifahi yaradıcılığında oxşar motivlər. Hər nağılın variantlarının müqayisəsi yolu ilə hər süjetin "praforma"sı, "ilk vətəni" və yaranma zamanının müəyyənləşdirmək cəhdi tarixi - coğrafi metodun ən böyük nailiyyəti kimi.

A.Aarnenin nağıl süjetlərinin göstəricisi kataloqu (1910) ilk beynəlxalq süjet kataloqu kimi. A.Aarne- N.Andreyev, Aarne-Tompson süjet göstəricisi kataloqları. S.Tompsonun ".Folklor motivlərinin göstəricisi" əsərinin folklorşünaslıq tarixində yeri.

**Antropoloji nəzəriyyə.** Süjetlərin oxşar dərketmə və oxşar psixoloji görüşlər sayəsində meydana gəlməsi. İbtidai mədəniyyətlərin yaranması haqqında E.Taylor, E.Lanq, C.Freyzer və başqalarının mülahizələri.

E.Taylorun «İbtidai mədəniyyət» (1871) əsəri. Ayrı-ayrı xalqlarda poetik əsərlərin süjet və motiv oxşarlıqlarının insan təbiətinin eyniliyi, insanların ruhi və psixi yaxınlığı ilə izah edilməsi. Süjetlərin öz-özünə doğması haqqında müddəa. C.C..Freyzerin "Qızıl budaq" əsəri.

**Tarixi nəzəriyyə.** Şifahi yaradıcılıq və tarix. V.F.Miller məktəbin banisi kimi XX yüzilliyin əvvəllərində problemın öyrənilmə istiqamətləri. A.A.Şifner və V.V.Radlovun yeni nəşrləri. Eposun milli tarixlə öyrənilməsində rolu. Bılinaların yaranmasında tarixi varisliyin rolu.

Rus eposunun tarixi coğrafiyasının yaradılması. Rus folklorunun saray zadəganları tərəfindən yaradılması və xalq kütlələri tərəfindən yaşadılması məsələsi. Xalq ədəbiyyatının inkişaf qanunauyğunluqlarının nəzərə alınmaması. Nəzəriyyəyə münasibət, onun tənqidi.

**Strukturalist məktəblər.** Avropada XIX-XX əsrlərdə otuzdan artıq nəzəri məktəbin yaranması.. C.Kokkyara bu məktəblər barədə geniş məlumat verən müəllif kimi.

Ötən əsrin 20-ci illərində A.R.Rodkliff-Braun tərəfindən Böyük Britaniyada yeni strukturalist nəzəriyyənin meydana çıxması. Bu nəzəriyyənin ictimai-siyasi, sosiologiya, eləcə də antropologiya, etnologiya və folklorla bağlılığı. V.Proppun 1928-ci ildə «Nağılların morfologiyası» adlı

əsəri ilə bu metodun əsasını qoyması. K.Levi-Strossun "Struktural antropologiya" əsəri (1958)..

Nəzəriyyənin folklorşünaslığa tətbiqi. Tipoloji uyğunluqları, oxşarlıqları araşdırmaqda, süjetin yaranma dövrünü müəyyənləşdirməkdə, onu ümumdünya kontekstində öyrənməkdə əhəmiyyəti. K.Levi-Strosun həm miflərdə, həm də nağıllarda ikili qarşıdurmalardan istifadə etməklə elmə mediator terminini gətirməsi. Struktur – semiotik metodun tətbiqi ilə mətnin və ya ritualın ilkin variantının bərpası. Nəzəriyyənin A.Dandis, E.Meletinski, S.Neklyudov, V.Seqal və b. tərəfindən davam etdirilməsi.

Müasir folklorşünaslıqda süjet oxşarlığının səbəblərinin tarixi-genetik, tarixi-mədəni və tarixi tipoloji cəhətdən öyrənilməsi.

## MÖVZU III
## AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞI

Azərbaycan folklorşünaslıq elminin yaranma tarixinə bir nəzər. Folklor əsərlərinin yazıya alınması. Ən qədim əlyazmalar, cünglər, nüsxələr, folklor mətnlərini öyrənməkdə ilk mənbə kimi.

Azərbaycan folklorunun ilk toplayıcıları və ilk nəşr örnəkləri.

1721-ci ildə Təbrizdə tərtib olunmuş "Nəğmələr" əlyazması. 1804-cü ildə Cənubi Azərbaycanda şair Əndəlib Qaracadaği tərəfindən tərtib edilmiş əlyazma.

«Kavkaz» qəzeti, SMOMPK məcmuəsi, «Əkinçi» qəzeti və dövrün başqa nəşrlərində milli folklor nümunələri. SMOMPK məcmuəsinin folklorumuzun nəsri və tədqiqində rolu.

Mirzə Kazım bəyin «Firdovsiyə görə fars əsatiri» məqaləsi (1848). Şərq əsatirini 2 qismə ayırması. Əfsanə və rəvayət haqqında fikir və mülahizələri.

M.Mahmudbəyov, E.Sultanov, F.Köçərli, H.Zərdabi və başqa ziyalıların folklorun toplanması, nəşri və tədqiqindəki xidmətləri.

«Molla Nəsrəddin» jurnalı və Azərbaycan folkloru.

Sovet dövrü folklorşünaslığı. «Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti"nin (1923) fəaliyyəti. Ə.Abid, H.Zeynallı, A.Baqri, V.Xuluflu, Y.V.Çəmənzəminli, S.Mümtaz, H.Əlizadə və başqalarının folklorşünaslıq fəaliyyəti. Sovet repressiyası və Azərbaycan folklorşünaslarının taleyi.

40-60-cı illərdə Azərbaycan folklorşünaslığı. H.Araslı, M.H.Təhmasib, N.Seyidov, Ə.Axundov və b. folklorşünaslıq əsərləri.

H.Araslının «Kitabi-Dədə Qorqud» nəşrləri və onların qorqudşünaslıqda yeri. H.Araslının «Aşıq yaradıcılığı» (1960) tədqiqatı. M.H.Təhmasibin mərasim folkloru, nağıllar və s. haqqında məqalələri. M.H.Təhmasib Azərbaycan eposunun tərtibçisi, naşiri və tədqiqatçısı kimi.

Onun folklorumuzun müxtəlif nəzəri məsələlərinə aid araşdırmaları.

«Azərbaycan xalq dastanları (orta əsrlər)» əsəri.

**1970-2000-ci illər folklorşünaslığın yeni yüksəliş dövrü kimi.**

V.Vəliyev, P.Əfəndiyev, İ.Abbasov, B.Abdullayev, A.Nəbiyev, Q.Paşayev, S.Paşayev, T.Fərzəliyev, H.İsmayılov və başqalarının folklorşünaslıq fəaliyyəti.

Azərbaycanda folklorşünaslığın sonrakı inkişaf mərhələsi. M.Qasımlı, M.Kazımoğlu, K.Əliyev, S.Orucova, E.Məmmədli, F.Bayat, C.Bəydili, R.Qafarlı, S.Rzasoy, N.Xəlilov, E.Talıblı, M.Məmmədov, A. Xəlil, R.Əliyev, Ü.Nəbiyeva, K.İslamzadə və b.

«Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyi ilə bağlı tədbirlər. «Koroğlu» nəşrləri, aşıq yaradıcılığı ilə bağlı tədqiqatlar.

## MÖVZU IV
## MİFOLOGİYA. ARXAİK JANRLAR

Mif və mifologiya haqqında ümumi məlumat. Mif bir tərəfdən təhkiyə mətni, ikinci bir tərəfdən dünyagörüş, təsəvvürlər sistemi kimi. Mifin etioloji funksiyası. Mif şüur və davranış modeli kimi. Mifik zaman və mifik məkan. Qədim türk mifologiyası Azərbaycan mifologiyasının erkən qaynağı kimi. Mifologiyanın sonrakı dövr inkişafı.

Mif və nağıl. Mif və epos. Mifologiyada ilkin əcdad, mədəni qəhrəman. Mifoloji düşüncədə kosmoqonik miflərin yeri. Etnoqonik miflər. Təqvim mifləri. Azərbaycan mifologiyasının qaynaqları. Türk mifologiyasında tanrıçılıq görüşləri.

Xalq ədəbiyyatının formalaşmasında animistik, totemistik, fetişist, antropomorfik, magik baxışlar.

Folklorumuzun janr sistemində arxaik janrların yeri. Bu janrlarda sözün magik gücünə inam. Arxaik janrların yaranma yolları və xarakterik xüsusiyyətləri.

**İnanclar** sınamalar nəticəsində qətiləşən hökmlərin bədii ifadəsi kimi. Təsnifi. Mövzu və məzmun xüsusiyyətləri.

**Alqış və qarğışlar.** Bu janrların mənşəyi və yaranması. Təsnifi. Xeyir və şərə münasibəti ifadə edən arxaik janrlar kimi.

**Andlar.** Andın yaranma yolları. Andın janr xüsusiyyətləri. Təsnifi.

**Əfsunlar** – sözün magik gücünə inamı əks etdirən bir janr kimi. Təsnifi.

**Fallar.** Janr xüsusiyyətləri. Növləri.

Azərbaycan folklorşünaslığında az öyrənilmiş arxaik janrlar – türkəçarələr, yalanlar, dualar, yalvarışlar və s.

Etnopsixoloji düşüncə ilə bağlı janrlar. Onların tipləri. Gözəgörünmə, ürəyədamma, yuxu və s.

## MÖVZU V
## LİRİK NÖVÜN JANRLARI VƏ MƏRASİM FOLKLORU

**Mərasim nəğmələri.** Mərasimlərin ibtidai insanların həyatı, məişəti, dünyagörüşü, dini etiqadı ilə əlaqədar olması. Mərasim nəğmələrinin 2 qrupu.

**Mövsüm mərasim nəğmələri.** Təbiət qüvvələrini öz məqsədlərinə tabe etmək üçün keçirilən mərasimlər. Günəşi çağırış, Yel baba, Duman qaç, Yada nəğmələri.

**Novruz xalq bayramı.** Novruza qədər oxunan nəğmələr. İlaxır çərşənbələr. Novruz mərasim nəğmələrinin rəmzi mənaları. Adət-ənənə və ritualların bayramda əksi. Türk xalqlarında Novruz.

**Məişət mərasim nəğmələri.** Toy nəğmələri. Onların mövzu və məzmun xüsusiyyətləri. Vəsfi-hallar.

**Yas mərasim nəğmələri.** Yas mərasiminin qədim növləri. İslam dəyərləri ilə bağlı yeni inkişaf formaları. Yuğlamalar, ağılar, mərsiyələr və s.

Doğum, adqoyma mərasimləri.

**Əmək nəğmələri.** Holavarlar əmək nəğmələrinin nümunəsi kimi. «Holavar» sözünün etimologiyası ilə bağlı mülahizələr. Sayaçı sözləri əmək nəğmələrinin geniş yayılmış nümunələrindən biri kimi. Sayaçı sözü haqqında müxtəlif mülahizələr (F.Köçərli, M.Arif, Ə.Axundov, M.H.Təhmasib və başqaları). Sayaçı sözlərinin SMOMPK məcmuəsində nəşri haqqında.

Sağın nəğmələri maldarlıq həyatı ilə bağlı əmək nəğməsi kimi. Ovçu nəğmələri. Ovçuluq nəğmələrində mifik süjet və inamların əksi. Balıqçı nəğmələri və s.

Yeddi hecaya qədərki şeir şəkilləri, onların əsas xüsusiyyətləri.

**Bayatı janrı.** Bayatıların öyrənilmə, nəşr və tədqiq tarixindən. «Bayatı» sözünün etimologiyası ilə bağlı mülahizələr. Bayatıların strukturu. Bayatılarımızda «Əzizim», «Əzizinəm», «Mən aşiq», «Aşiqəm» və s. sırasından olan spesifik başlama maneraları. Bayatıların qafiyə sistemi. Bayatılarda bölgü. Bayatıların Kərkük xoyratlarını xatırladan tipi haqqında. Cinas bayatılar.

Yeddilik şeirin şəkilləri. Laylalar beşik başında müəyyən musiqi ahəngi ilə oxunan nəğmələr kimi. Laylaların bayatılardan fərqli cəhətləri.

Ağılar yas mərasimində söylənən nümunələr kimi.

Oxşamalar, əzizləmələr – lirik növün janrları kimi.

## MÖVZU VI
## EPİK NÖVÜN JANRLARI: ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR, TAPMACALAR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

**Atalar sözü və məsəllər.** Toplanması, nəşr və tədqiq tarixi. Atalar

sözü və məsəllərin forma və məzmunca yaxınlığı. Atalar sözü və məsəllərin fərqli cəhətləri.

Atalar sözü və məsəllərin məzmun baxımından rəngarəngliyi. Atalar sözü və məsəllərin nəşr edilməsində SMOMPK məcmuəsinin rolu.

**Tapmaca janrı.** Tapmacaların toplanma, nəşr və tədqiq tarixindən. Tapmacaların hər hansı bir əşya, hadisə və məfhum haqqında metafora şəklində qurulmuş düşündürücü suallardan ibarət olması. Tapmacada məfhum, əşya və hadisənin müəyyən əlamətinin gizli saxlanılması. Tapmacaların çoxvariantlılığı. Tapmacaların əsas məqsəd və qayəsi.

Tapmacaların şəkli xüsusiyyətləri. Tapmacalarda metafora, təşbeh və s. bədii təsvir vasitələrindən istifadə. Tapmacaların uşaqların zehninin, düşüncə və təfəkkürünün formalaşmasına təsiri.

**Əfsanə** epik növün janrı kimi. Əfsanələrin toplanma, nəşr və tədqiq tarixi. Əfsanə janrının spesifik xüsusiyyətləri. Əfsanələrin mövzu və məzmun baxımından təsnifi. Əfsanələrdə çevrilmə. Əfsanə örnəklərinin çapında SMOMPK məcmuəsinin yeri.

Əfsanə və tarix. Yaranma və yayılma yolları.

Qalalarla bağlı əfsanələr. «Qız qalası» ilə bağlı əfsanə və rəvayətlər. Toponomik əfsanələr. V.M.Sısoyevin İsgəndərin xəzinəsi haqqında Şamaxıda topladığı əfsanələr. Kosmoqonik əfsanələr.

**Rəvayət janrı.** Rəvayət janrının spesifik cəhətləri. Azərbaycanda rəvayətlərin toplanma, nəşr və tədqiq tarixi. Rəvayətlərin təsnifi. Tarixi şəxsiyyətlərlə bağlı rəvayətlər. Etimoloji rəvayətlər. İzahlı rəvayətlər.

Rəvayət və əfsanələrin oxşar və fərqli cəhətləri.

## MÖVZU VII
## AZƏRBAYCAN NAĞILLARI. TƏSNİFİ.
## LƏTİFƏ JANRI

Nağıl şifahi xalq ədəbiyyatının ən geniş yayılmış janrlarından biri kimi. Nağılların funksiyaları. Toplanma, nəşr və tədqiq tarixindən.

A.Aarne - N.Andreyevin nağıl süjet göstəriciləri. S.Tompsonun motiv göctəricisi. P.V.Vladimirov, İ.P.Saxarov və A.N.Afanasyevin təsnifatları. V.Y.Propp nağılların strukturu haqqında.

1825-ci ildə «Polyarnaya zvezda» jurnalında «Derevyannaya krasavitsa» adı ilə Azərbaycan nağılının ilk dəfə rus dilində nəşri. Azərbaycan nağıllarının SMOMPK məcmuəsində nəşri.

Azərbaycan nağıllarının ilk təsnifatının Y.V.Çəmənzəminli tərəfindən verilməsi. H.Zeynallı, H.Əlizadə, M.H.Təhmasib, P.Əfəndiyev və başqalarının təsnifatları.

Nağılların süjet tərkibi. Nağıl janrının bədii xüsusiyyətləri. Nağıl kompozisiyasında ənənəvi formul və üsullar. Kompozisiya baxımından ənənəvi formulların başlanğıc, təhkiyə və sonluq formullarına ayrılması.

Nağıllarda kontaminasiya üsulunun müxtəlif tipləri. Xalq nağıllarının poetik mətnlərində, «üç», «yeddi», «qırx» sayları.

Nağılların poetik dili. Nağıllarda bənzətmə, epitet, mübaliğə və s. dilin obrazlı vasitələri kimi.

Mif və nağıl. Mif nağılın başlıca qaynaqlarından biri kimi. Mif və nağıl arasındakı əsas fərqin sakrallıq-qeyri sakrallıq, gerçəklik-uydurma xətti ilə müəyyənləşdirilməsi.

**Sehrli nağıllar.** Bu nağıllarda süjetin əfsanəvi məkan və zaman hüdudunda inkişaf etməsi. Xeyirlə şərin mübarizəsinin sehrli nağılların əsas mövzusunu əks etdirməsi.

Sehrli nağıllarda baş qəhrəmanın onu əhatə edənlərdən bir sıra qeyri-adi cəhətləri ilə fərqlənməsi. Sehrli nağıllarda qeyri-adi doğuluş motivi. Sehrli nağıllarda 2 əsas qəhrəman tipi. Sehrli nağılların obrazlar sisteminin 3 qrupa ayrılması: xeyirxah qüvvələr, şərin qurbanları, şər qüvvələr.

Sehrli nağıllarda mənfi obrazların şərti olaraq 2 qrupa ayrılması. Sehrli nağıllarımızda div, əjdaha və s. obrazların müxtəlif funksiyalarda çıxış etməsi.

Sehrli nağıllarda ideal qəhrəman rolunda kiçik qardaş. Şər qüvvələrə qarşı mübarizədə qəhrəmana köməklik göstərən qüvvələr (Simurq, at və s.).

**Heyvanlar aləmindən bəhs edən nağıllar.** Heyvanlar haqqında nağıllarda ilkin təsəvvürlər. Heyvanlar haqqında nağılların başqa nağıllardan fərqi. Heyvanlar haqqında nağıllarda heyvan və quşların əsas iştirakçı olması. Bu nağılların antiteza – «güclü-zəif», «böyük-kiçik» prinsipi ilə qurulması.

**Məişət nağılları.** Məişət nağıllarının başqa nağıllarla müqayisədə real həqiqətə, ictimai və məişət problemlərinə yaxınlığı. Məişət nağıllarının süjet dövrəsi, obrazlar sistemi. Məişət nağıllarının özünəməxsus ekspozisiya ilə başlanması.

Məişət nağıllarında qəhrəmanın sinfi mənsubiyyəti. Konfliktin məişət çərçivəsində inkişaf etməsi. Məişət nağılları üçün ənənəvi formulların, gözəl epitetlərin, çoxsaylı təkrarların səciyyəvi olmaması. Məişət nağıllarının özünəməxsus sonluqla bitməsi.

**Lətifə janrı**. Əsas xüsusiyyətləri. Öyrənilmə, nəşr və tədqiq tarixi. Lətifələrdə gülüşün tipləri. Lətifələrin mövzu və ideyası. Lətifələrin təsnifi.

Bəhlul Danəndə lətifələri. Bəhlul Danəndə obrazının mənşəyi haqqında fikirlər. Orta əsrlərin yazılı ədəbiyyatı və Bəhlul Danəndə lətifələri. Bu lətifələrin spesifik cəhətləri. Bəhlul Danəndə lətifələrindəki ibrətamiz həyat.

Molla Nəsrəddin lətifələrinin xüsusiyyətləri. V.Qordlevskinin Molla Nəsrəddinin prototipi haqqında mülahizələri, Molla Nəsrəddin Şərq xalqlarında gülüşü, hazırcavablığı və müdrikliyi birləşdirən obrazı kimi.

Molla Nəsrəddin və Bəhlul Danəndə lətifələrinin fərqli cəhətləri.

Regional lətifələr. Ayrı-ayrı bölgələrin baməzə lətifə qəhrəmanları, özünəməxsus cəhətləri.

Qaravəllilərin janr xüsusiyyətləri.

## MÖVZU VIII
## OZAN-AŞIQ SƏNƏTİ. AŞIQ ŞEİRİNİN ŞƏKİLLƏRİ

Ozan sənəti haqqında ümumi məlumat. Ozan-aşıq əvəzlənməsinin ictimai-tarixi səbəbləri. Ozan və aşıq sənətinin fərqli cəhətləri.

Ozanın aşığa, qopuzun saza çevrilməsi mərhələsi. Qopuz haqqında məlumat. «Aşıq» sözünün etimologiyası haqqında. Aşıq-təkkə-dərviş ənənələri. Aşıq yaradıcılığına dair müxtəlif baxışlar.

Aşıq sənətinin orijinallığı və təkrarolunmazlığı. Saz haqqında ümumi məlumat. Aşıqların 2 qrupu (yaradıcı ustad aşıqlar: peşəkar ifaçı aşıqlar).

Ustad-şagird ənənəsi.

Məhəbbət mövzusunun aşıq poeziyasının əsasını təşkil etməsi.

Aşıq poeziyasının forma və məzmun zənginliyi.

Aşıq şeirinin şəkilləri – qoşma, gəraylı, təcnis, müxəmməs, divani və s.

Qoşma və onun növləri. Strukturu, qafiyə sistemi.

Gəraylı şeir şəkli. Quruluşu və qafiyə sistemi. «Gəraylı» sözünün etimologiyası ilə bağlı mülahizələr.

Təcnis şeir şəkli. Poetik quruluşu və forma xüsusiyyətləri. Növləri.

Müxəmməs şeir şəkli. Qafiyə sistemi, strukturu.

Divani şeir şəklinin xüsusiyyətləri. Aşıq poeziyasında deyişmə və onun mərhələləri.

Aşıq məktəbləri (Anadolu, Təbriz, Şirvan, Göycə) və onların əsas nümayəndələri.

## MÖVZU IX
## DASTAN JANRI. QƏDİM TÜRK DASTANLARI

**Dastan janrı** Azərbaycan folklorunun geniş yayılmış və irihəcmli janrı kimi. «Dastan» sözünün mənası.

Dastanın nəsr və nəzm hissələrindən ibarət olması.

Azərbaycan dastanlarının təsnifi (M.H.Təhmasib və b.)

«Epos» sözünün ədəbiyyatşünaslıqda həm dar, həm də geniş mənada işlənməsi. Epos mənsub olduğu xalqın ictimai-estetik təfəkkürünü ifadə edən möhtəşəm əsər kimi. Türk eposunun mənşəyi haqqında. Türk epos mədəniyyətinin mərhələləri.

Qədim türk epos təfəkkürünün müxtəlif mənbələrdə zəmanəmizə qədər gəlib çıxmış əsas örnəkləri («Yaradılış», «Alp Ər Tonqa», «Şu»,

«Köç», «Ərgənəkon», «Oğuz kağan») və s.

**«Alp Ər Tonqa»** dastan yaradıcılığının bizə gəlib çatan əski nümunəsi kimi. Mövzu və məzmun xüsusiyyətləri. Dastanda ən qədim ağı nümunələri. Obrazlar sistemi.

**«Ərgənəkon»** dastanının təxminən I minilliyin ortalarında müxtəlif qədim rəvayətlər əsasında formalaşması. Dastanın məzmunu barədə XIV əsrdə F.Rəşidəddin, XVII əsrdə isə Əbül Qazi Bahadır xanın məlumat verməsi.

**«Şu»** dastanı Makedoniyalı İsgəndərin Türküstana yürüş etdiyi dövrün hadisələrindən bəhs edən əsər kimi, «Şu» dastanından rəvayətlər şəklindən müəyyən əhvalatların M.Kaşqarlının «Divanü Lüğat-it-Türk» ensiklopediyasında öz əksini tapması.

**«Oğuz kağan»** dastanı qədim türk eposunun ən mükəmməl təzahürlərindən biri kimi. Dastanın e.ə. I minilliyin sonlarında formalaşmasının güman edilməsi. Eramızın I minilliyində türklər arasında geniş yayılması və II minilliyin əvvəllərindən etibarən oğuz türklərinin epik tarixi funksiyasında çıxış etməsi.

Oğuzların ictimai-siyasi, tarixi-mifoloji, dini-fəlsəfi görüşlərini, epik-bədii təfəkkürünü əks etdirən nümunələrə elmi ədəbiyyatda «Oğuznamə» deyilməsi. Oğuznamə özündə oğuzların kosmoetnoqonik və təqvim miflərini, dastanlarını, rəvayətlərini, atalar sözlərini, məsəllərini, şeir parçalarını birləşdirməsi.

«Oğuz Kağan» dastanının uyğur əlifbası ilə əsas nüsxədən XIII- XIV əsrlərdə üzü köçürülmüş nüsxəsinin Paris Milli Kitabxanasında saxlanılması.

«Oğuz kağan» dastanının öyrənilmə və nəşr tarixindən. Oğuznamə «Oğuz kağan» adı ilə orijinaldan ilk dəfə 1993-cü ildə Azərbaycanda Füzuli Bayat (Gözəlov) tərəfindən nəşr edilməsi. Dastanın qədim türklərin mifoloji dünyagörüşlərini əks etdirməsi.

## MÖVZU X
## «KİTABİ-DƏDƏ QORQUD» DASTANI. NƏŞR VƏ TƏDQİQ TARİXİ

**«Kitabi – Dədə Qorqud»** dastanı qəhrəmanlıq dastanlarının bizə gəlib çatan ən qədim nümunələrindən biri kimi. Dastanın ən qədim boyları. Ən qədim süjet, motiv və obrazlar.

Dastanın əlyazmaları. Drezden və Vatikan nüsxələri.

«Kitabi – Dədə Qorqud» dastanının öyrənilmə nəşr və tədqiq tarixindən. «Kitabi – Dədə Qorqud» dastanı dünya tədqiqatında. Dastanın nəşrində H.F.Dits, V.Bartold, O.Ş.Gökyay, E.Rossi, M.Ergin, H.Araslı və başqalarının xidmətləri.

Eposun Azərbaycanda öyrənilmə tarixinə bir nəzər. Ə.Abid «Kitabi – Dədə Qorqud» ilə məşğul olan ilk azərbaycanlı alim kimi.

«KDQ» dastanının ilk dəfə Azərbaycanda H.Araslının tərtibi, redaktəsi və ön sözü ilə çap olunması (1939). Dastanın araşdırılması, tədqiq edilməsində Ə.Dəmirçizadə, Ə.Sultanlı, M.H.Təhmasib, Ş.Cəmşidov, S.Əlizadə, T.Hacıyev və başqalarının rolu.

Ümummilli lider H.Əliyevin «Kitabi – Dədə Qorqud»un 1300 illik yubileyinin keçirilməsi ilə bağlı fərmanı (20 aprel 1997-ci il) və eposun öyrənilməsində yeni mərhələnin başlanması. «Kitabi – Dədə Qorqud» dastanının son nəşrləri. «Kitabi – Dədə Qorqud» ensiklopediyası.

«Kitabi – Dədə Qorqud» dastanının alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı (20 fevral 2015-ci il).

## MÖVZU XI
## «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ OBRAZLAR SİSTEMİ

Dastanın müqəddiməsində rast gəlinən atalar sözü və məsəllər. Qadınların 4 tipə bölünməsi.

Dədə Qorqud obrazı. Dədə Qorqudla bağlı türk xalqları arasında yaranan əfsanə və rəvayətlər. «Qorqut» sözünün etimologiyası haqqında mülahizələr. Türküstan baxışlarının onu «Ata Qorqut Övliya» adıyla xatırlaması.

Qorqut Ata övliya, «vilayət issi»si kimi.

Qorqut Atanın yazılı qaynaqlarda – salnamə, təzkirə və səyahətnamələrdə tarixi şəxsiyyət cizgisi daşıması.

Qorqut Ata Ulu Ananın arxaik strukturlu obrazı kimi bir çox atributlarını qoruması. Əcdad ruhu ilə bağlılığı. Qorqut Atanın ölümdən qaçma əfsanələri. Qorqut Ata qopuzun yaradıcısı kimi.

Qorqut Atanın qəbri haqqında.

Qazan xan obrazı. Oğuz epik ənənəsində Qazan xan obrazının tarixi-müqayisəli və struktur-semantik səviyyələrdə bir obraz kimi yeri. Qazan xan təyinlərinin zoomifoloji, antropomifoloji və s. modellər təşkil etməsi.

Dastanda Bayandır xan obrazı.

«Kitabi – Dədə Qorqud» dastanında oğuz qəhrəmanları (Bamsı Beyrək, Buğac, Basat, Qanturalı və s. obrazlar). Qaraca Çoban obrazı.

«Dədə Qorqud kitabı»nda dqadın obrazları. Oğuz cəmiyyətində qadınların hüquqları. Ana haqqının Tanrı haqqına bərabər tutulması.

Dastanda adqoyma, nişan, yas, toy mərasimləri.

Dastanda, «əsir düşmə», «övladsızlıq», «can əvəzinə can vermə» və s. motivlər.

## MÖVZU XII
## «KOROĞLU» EPOSU. VERSİYA VƏ VARİANTLARI

XVI əsrin sonu, XVII əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi şərait. Cəlalilər hərəkatı. **«Koroğlu»** dastanının yayıldığı etnik-coğrafi areallar. Aşıq reperturında ilk «Koroğlu» nəğmələri. «Koroğlu» dastanının toplanması və nəşri. «Koroğlu» dastanı haqqında ilk mətbu məlumat. İ.Şopen (1840), A.Xodzko (1842) nəşrləri, S.S.Penn nəşri (1856).

Rus mətbuatında dastanın həqiqi mətninin ilk dəfə İvan Şopen tərəfindən nəşr edilməsi. İ.Şopenin Zaqafqaziyaya səyahət zamanı Koroğlu qalasına rast gəlməsi, qala haqqında məlumatlar və dastanı Omir// Ömər//Əmir adlı bir azərbaycanlı aşıqdan toplaması. İ.Şopenin dastanı Azərbaycan dilini bilən bir erməninin «tərcüməsində» dinləməsi və yazıya alması. «Bayazid səfəri» qolunda İ.Şopenin «son əhvalat mənim ixtiramdır» adlandırdığı epizod. Həmin epizodun Azərbaycan koroğluşünasları tərəfindən kəskin tənqidi. İ.Şopen mətninin qüsurları və elmi əhəmiyyəti. Koroğlunun adına XIX əsrdə toplanıb çap edilən bəzi mətnlərdə yad epizodlar.

A.Xodzkonun 1834-cü ildə Cənubi Azərbaycandan topladığı və 1842-ci ildə Londonda nəşr etdirdiyi «Koroğlu» dastanı. Eposun dünyaya tanıdılmasında A.Xodzko nəşrinin müstəsna rolu. Bu nəşrdə «Koroğlu» dastanından on üç məclisin yer alması. Paris nüsxəsi ifadəsinin 1997-ci ildə Bakı çapını hazırlamış İsrafil Abbaslı tərəfindən elmi ədəbiyyata gətirilməsi.

Paris nüsxəsinin Təbrizdə Nigarıstanlı Aşıq Sadıqdan yazıya alınması. Mətnin yurd (nəsr) hissəsinin farsca, şeirlərinin isə Azərbaycan dilində olması. Paris nüsxəsi ən qədim variantlardan biri kimi özündə çoxsaylı motivləri qoruması.

SMOMPK məcmuəsinin IX sayında (1890) Zaqafqaziya müəllimlər seminariyasının tələbəsi M.Vəlizadə tərəfindən toplanmış «Koroğlu» hekayəti və üç şeir.

XX əsrin birinci yarısında “Koroğlu” eposunun toplanması, nəşri və tədqiqində V.Xuluflu, A.Rəcəbli, Ə.Tahirov və H.Əlizadənin xidmətləri.

V.Xuluflunun Tovuzda Aşıq Hüseyn Bozalqanlıdan qeydə aldığı «Toqat səfəri» və «Bağdad səfəri» qollarını kitab halında 1927-ci ildə nəşr etdirməsi.V.Xuluflunun 1929-cu ildə dastanın daha geniş həcmli mətnini (4 qol) latın qrafikasında H.Zeynallının redaktorluğu ilə yenidən nəşr etdirməsi.

«Koroğlu» dastanının ən kamil variantlarından birinin toplanması, nəşri və çapının H.Əlizadənin adı ilə bağlı olması (14 qol).

M.H.Təhmasibin koroğluşünaslıq fəaliyyətinin iki istiqaməti / eposun tərtibatı və nəşri; eposun tədqiqi /. M.H.Təhmasibin 1949-cu il nəşrinin 17 qolu özündə birləşdirməsi. Tədqiqatçının «Koroğlu»nun 1975-ci il nəşrinə «Mərcan xanımın Çənlibelə gəlməsi» qolunu əlavə etməsi. Nəşrin geniş

oxucu kütləsi üçün nəzərdə tutulduğundan ədəbi dilə uyğunlaşdırılması. M.H.Təhmasibin «Koroğlu» eposundakı tarixilik problemi ilə bağlı mülahizələri.

Azərbaycan folklorşünaslığında «Koroğlu» eposunun mifoloji istiqamətdə öyrənilməsinə M.Seyidov, H.Tantəkinin tədqiqatları ilə başlanılması.

İ.Abbaslının «Koroğlu» eposunun poetik xüsusiyyətlərinin tədqiqi istiqamətində dəyərli araşdırmaları. 1990-2000-ci illərdə İ.Abbaslı əksər «Koroğlu» nəşrlərinin tərtibçisi, ön söz, qeyd və şərhlərin müəllifi kimi. İ.Abbaslı və B.Abdullayevin tərtibatı ilə «Koroğlu»nun 2005-ci ildəki nəşrinin Nizami adına Ədəbiyyat İnstitutunun folklor arxivindəki əlyazmalar əsasında hazırlanması.

«Koroğlu» dastanının Tiflis nüsxəsi və ya Təbriz variantı (2005). D.Əliyeva variant əlyazması haqqında ilk məlumat verən azərbaycanlı ədəbiyyatşünas kimi. İyirmi səkkiz məclisdən ibarət əlyazmanın ərəb əlifbasının nəsx–nəstəliq xəttində yazılması. X.Koroğlunun Təbriz variantının əlyazması ilə bağlı mülahizələri. Dastanın dilinin onun daha qədim əlyazmadan köçürülməsi ehtimalını irəli sürməyə imkan verməsi. Təbriz variantının nəşrində H.İsmayılov və E.Tofiq qızının rolu.

Dastanın araşdırılmasında B.A.Qarrıyev, X.H.Koroğlu, M.H.Təhmasib, N.Q.Braginski, H.T.Zərifov, A.Nəbiyev, İ.Abbaslı, P.Əfəndiyev, F.Bayat, B.Həqqi, X.Bəşirli və başqalarının xidmətləri.

"Koroğlu" eposu məzmun və süjet fərqinə görə üç yerə bölünməsi: 1. Türkmən; 2. Azərbaycan; 3. Kiçik Asiya variantları ( P.N.Boratav, İ.Abbaslı). Dastanın Qafqaz-Anadolu və Türküstan versiyaları ( A.Nəbiyev). Dastanın həmçinin Zaqafqaziya və Orta Asiya, yaxud Qərb və Şərq versiyaları adları altında təqdim edilməsi. Türküstan // Orta Asiya // Şərq versiyasının variantlarında Koroğlunun möcüzəli doğuluşu – «qəhrəmanın gorda doğulması» motivinin qorunması. «Koroğlu» dastanının Qərb və Şərq versiyaları arasında fərqli cəhətlər.

Koroğlu dastanın əsas epik qəhrəmanı kimi. Koroğlu və xalq. Koroğlunun məğlubedilməzliyini təmin edən əsas amillər (Qoşabulaq, Misri qılınc, Qırat). "Qırat" sözünün etimologiyası ilə bağlı mülahizələr (M.Seyidov, M.H.Təhmasib, M.Hatəmi, E.Əzizov və başqaları).

Koroğlunun ilkin əcdad, mədəni qəhrəman və ya demiurq funksiyaları. Koroğlunun türk epik ənənəsində xilaskarlıq missiyası. Koroğlu // Goroğlunun adı ilə bağlı mülahizələr.

«Koroğlu» dastanının başqa qəhrəmanları – Eyvaz, Dəli Həsən, Dəmirçioğlu, Bəlli Əhməd.

Dastanda qadın surətləri. Nigar xanım, Telli xanım, Ruqiyyə xanım, Bənövşə xanım və başqaları.

Çənlibel azadlıq məkanı kimi. «Çənlibel» sözünün etimologiyası haqqında mülahizələr.

«Koroğlu» dastanının dili və bədii xüsusiyyətləri.

## MÖVZU XIII
## QAÇAQÇILIQ DASTANLARI

XIX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət. Azərbaycanın işğalı. Gülüstan və Türkmənçay razılaşmaları. Azərbaycanın Rusiya tərkibinə zorla ilhaq edilməsi (1828). Azərbaycanda milli azadlıq hərəkatının meydana çıxması. Qaçaqçılıq hərəkatının yaranması və ilk qaçaq nəğmələri.

**«Molla Nur» dastanı.** Toplanma və nəşr tarixi. Rus ziyalıları Molla Nur haqqında. A.A.Bestujev-Marlinskinin «Quba yolu» və «Molla Nur» əsərləri. Dastanın toplanma və nəşr tarixi, variantları.

Molla Nur xalq qəhrəmanı kimi.

**«Qaçaq Nəbi» dastanı.** Mövzu və məzmun xüsusiyyətləri. Nəşr variantları. Toplanma, nəşr və tədqiq tarixi. ”Qaçaq Nəbi” SMOMPK-da. Qaçaq Nəbi surəti. Nəbinin silahdaşları.

**«Qaçaq Kərəm»** dastanı. M.Qorki Qaçaq Kərəm haqqında. Toplanma nəşr və tədqiq tarixindən. Dastanın variantları. Dastanın məzmun və ideya xüsusiyyətləri. Qaçaq Kərəm və İsrafil ağa obrazları.

1905-ci il inqilabının folklorda əksi. **«Səttar xan»** dastanı. Cənubi Azərbaycanda gedən milli-azadlıq hərəkatının dastanda ifadəsi. Aşıq Hüseyn Cavan dastanın yaradıcısı kimi.

## MÖVZU XIV
## MƏHƏBBƏT DASTANLARI

Azərbaycan dastanlarının böyük bir hissəsini məhəbbət dastanlarının təşkil etməsi. Məhəbbət dastanlarının poetik strukturu. Məhəbbət dastanlarının 3 hissədən: ustadnamə, dastanın özü və duvaqqapmadan ibarət olması. Dastan süjetinin 4 mərhələdən təşkili. «Buta» motivi. «Buta» motivinin dastanlarda çeşidli şəkilləri. «Buta» sözünün mənaları. Məhəbbət dastanlarının yaranma yolları.

Məhəbbət dastanlarının toplanma, nəşr və tədqiq tarixindən. SMOMPK məcmuəsində məhəbbət dastanları.

**«Qurbani»** dastanı. Əldə edilmiş variantları 3 müstəqil versiya təşkil etməsi. Gəncə versiyası versiyalardan ən mükəmməli kimi. Diri versiyasının təsəvvüfi-irfani dünyagörüşlə bağlılığı.

**«Abbas və Gülgəz»** dastanı. Dastanın variantları. M.H.Təhmasibin dastanla bağlı mülahizələri. Şah Abbas və Aşıq Abbas obrazlarının müqayisəli təhlili. Şah Abbasla bağlı məhəbbət dastanları.

**«Əsli və Kərəm»** dastanı. Salman Mümtazın «Əsli və Kərəm»

dastanını «şahkar dastan» adlandırması. «Əsli və Kərəm» dastanının türk xalqları içərisində variantları. M.Mahmudbəyovun dastanla bağlı mülahizələri.

**«Aşıq Qərib»** dastanı. Versiya və variantları. «Ər öz arvadının toyunda» süjeti. Bu süjetin qədim yunan eposu «Odisseya»da da əksi.

Dastanın obrazlar sistemi. «Aşıq Qərib» dastanı ilə «Bamsı Beyrək» boyu arasında oxşar cəhətlər.

**«Şah İsmayıl»** dastanı. Şah İsmayıl obrazının prototipi haqqında mülahizələr. Ərəb Zəngi obrazı. «Zəngi» sözünün mənaları.

**«Alı xan və Pəri xanım»** dastanı. Dastanın əsasını təşkil edən nağılın A.Aarne – N.Andreyev cədvəlində 883 nömrəsi altında «Böhtana düşmüş qız» süjeti kimi qeyd olunması. Obrazlar sistemi.

## MÖVZU XV
## DRAMATİK NÖV VƏ JANRLARI

Dramatik növ haqqında ümumi məlumat. Dramatik növün epik və lirik növlərdən fərqi. Dramatik növdə hərəkət və dinamikanın üstünlük təşkil etməsi.

Xalq oyunları ilk kulturoloji hadisə kimi. «Oyun» sözünün mənşəyi ilə bağlı fikir və mülahizələr. Qobustan, Kəlbəcər daş kitabə və qaya rəsmlərində oyunların izləri. Əski yazılı mənbələrdə oyunlar. Xalq oyunlarının yaranma və inkişaf mərhələləri. M.Kaşqarlının «Divanü luğat-it-türk» əsərində oyunlar. Oyunların təsnifi. Oyunların tərbiyəvi və didaktik əhəmiyyəti.

Meydan tamaşaları. Tarixi və səciyyəvi cəhətləri. Sözsüz-pantomima tamaşaları. Meydan tamaşalarının məzmun və tiplərə görə təsnifi.

Xalq dramları. Onların əsas xüsusiyyətləri. Xalq dramlarının təsnifi (1.Mərasimlərlə əlaqədar dramlar; 2.İctimai məzmunlu dramlar; 3. Ailə – məişət dramları).

## Nəzəri ədəbiyyat
## Azərbaycan dilində:


1. Abbasov İ. Azərbaycan folklorşünaslığı: təşəkkülü və inkişaf mərhələləri// Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. IX kitab. Bakı: Elm, 200, s.3-41
2. Abbasov İ. Folklorşünaslıq /Azərbaycan ədəbiyyatı tarixi. 6 clddə/ I cild. Bakı: Elm, 2004, s.686-706
3. Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı: Nurlan, 2007, 272 s.

4. Abdullayev B. Haqqın səsi. Bakı: Azərnəşr, 1987, 137 s.
5. Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Bakı: Maarif, 1978, 233 s.
6. Araslı H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, 1960, 135 s.
7. Aslanov E. El-oba oyunu, xalq tamaşası: xalq oyun-tamaşa mədəniyyətimizdə deyim və adların izahlı söz kitabı. Bakı: İşıq, 1984, 276 s.
8. Azərbaycan ədəbiyyatı tarixi. Altı silddə/ I cild (Şifahi xalq ədəbiyyatı). Bakı: Elm, 2004, 760 s.
9. Bayat F. (Gözəlov). Oğuz epik ənənəsi və «Oğuz Kağan» dastanı. Bakı: Sabah, 1993, 194 s.
10. Bayat F. Folklor dərsləri. Bakı:Elm və təhsil, 2012, 424 s.
11. Bəydili C. (Məmmədov). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya (monoqrafiya). Bakı: Mütərcim, 2007, 272 s.
12. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 263 s.
13. Cəfərli M. Azərbaycan dastanlarının struktur poetikası. Bakı: Nurlan, 2010, 404 s.
14. Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999, 220 s.
15. Dədə Qorqud kitabı/ Ensiklopedik lüğət. Bakı: Öndər nəşriyyat, 2004, 368 s.
16. Əfəndiyev P. Azərbaycan folklorşünaslığı tarixi. Bakı: ADRU, 2006, 475 s.
17. Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı/ Ali məktəb üçün dərslik. Bakı: Elm və təhsil, 2012, 600 s.
18. Əliyev K. Çağdaş folklorşünaslığın problemləri. Bakı: Elm və təhsil, 2017, 364 s.
19. Əliyev O. Azərbaycan nağıllarının poetikası. Bakı: Səda, 2001, 191 s.
20. Əsgər Ə. Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil, 2013, 340 s.
21. Əsgər Ə. Böyük türkmanlar və Türk dastan yaradıcılığı tarixinin Oğuznamə dövrü. Bakı: Sabah, 2024, - 408 s.
22. Fərzəliyev T.Azərbaycan xalq lətifələri. Bakı: Elm, 1971, 121 s.
23. Folklorşünaslıq məsələləri. I-XI buraxılışlar. Bakı, 1989-2013
24. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Yeni Nəşrlər Evi; Elm, 1999, 216 s.
25. Həkimov M.İ. Aşıq sənətinin poetikası. Bakı: Səda, 2004, 609 s.

26. Həqqi B. «Koroğlu»-tarixi-mifoloji gerçəklik. Bakı: Nurlan, 2003, 316 s.

27. Xəlilov N.Q. Aşıq yaradıcılığı və yazılı poeziya /Monoqrafiya. Bakı: Elm, 2012, 325 s.

28. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. Bakı: Səda, 2002, 210 s.

29. İsgəndərova V. Ənənəvi nağıl formulları / Azərbaycan və Türkiyə nümunələri əsasında. Bakı: Elm və təhsil, 2014, 202 s.

30. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı: Elm, 2002, 311s.

31. Kazımoğlu M. (İmanov). Gülüşün arxaik kökləri. Bakı: Elm, 2005, 186 s.

32. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, 268 s.

33. Kazımoğlu M. Folklorda obrazın ikiləşməsi (monoqrafiya). Bakı: Elm, 2011, 228 s.

34. Kitabi-Dədə Qorqud / Məqalələr toplusu. Bakı: Elm, 1999, 316 s.

35. Koroğlu X.H. Oğuz qəhrəmanlıq eposu. Bakı: Elm, 1999, 243 s.

36. Qarayev S.P. Mifoloji xaos: strukturu və poetikası. Bakı: Elm və təhsil, 2016, 220 s.

37. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı: Uğur, 2003, 308 s.

38. Quliyev H.V. Müdrik Qoca arxetipinin semantik strukturu və paradiqmaları. Bakı: Elm və təhsil, 2016, 216 s.

39. Namazov Q. Ozan- aşıq sənətinin tarixi. Bakı: Elm və təhsil, 2013, 480 s.

40. Nəbiyev A.M. Azərbaycan folklorunun janrları. Bakı: Elm, 1983, 84 s.

41. Nəbiyev A.M. Azərbaycan xalq ədəbiyyatı. 2 kitabda / I kitab. Bakı: Apostroff, 2014, 592 s.; 2-ci kitab, Bakı: Apostroff, 2014,660 s.

42. Novruz bayramı ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008, 208 s.

43. Oruclu S. Azərbaycan folklorunun rus dilinə tərcüməsi probleminin özünəməxsusluğu. Bakı: Səda, 2007, 204 s.

44. Orucova S. Azərbaycan folklorunun toplama, tərcümə və nəşr problemləri (QƏXTMT-SMOMPK materialları əsasında). Bakı: Elm və təhsil, 2012, 536 s.

45. Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi. Bakı: Elm və təhsil, 203, 368 s.

46. Rzasoy S. Oğuz mifi və Oğuznamə eposu. Bakı: Nurlan, 2007, 181 s.

47. Rzasoy S. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi (“Əsli-Kərəm” və “Dədə Qorqud”. Bakı: Elm və təhsil, 2015, 436 s.
48. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
49. Təhmasib M.H. Məqalələr /tərtib edənlər M.Cəfərli, O.Əliyev. Bakı: Elm, 2005, 318 s.
50. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 399 s.
51. Təhmasib M.H. Seçilmiş əsərləri. 2 cilddə/ I c., Bakı: Mütərcim, 2010, 488 s.; II c., Bakı: Kitab aləmi NRM, 2010, 440 s.
52. Umudov Q. Azərbaycan folklorşünaslığı: tarixi və problemləri. Bakı: Elm,2011, 152 s.
53. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 414 s.

**Türk dilində:**

54. Artun E. Dini- tasavvufi Halk edebiyatı İstanbul: Kitabevi, 2010, 380 s.
55. Banarlı N.S. Resimli türk edebiyatı tarihi / Destanlar devrinden zamanımıza kadar. I c. İstanbul. Milli Egitim Basımevi, 1987, 630 s.
56. Bayat F. Türk destançılık bağlamında Köroğlu destanı/Türk dünyasının Köroğlu fenomenolojisi. İstanbul: Ötüken, 2016, 204 s.
57. Bayat F.Oğuz destan dünyası/Oğuznamelerin tarihi, mifolojik kökenleri ve teşekkülü. İstanbul: Ötüken, 2013, 348 s.
58. Çobanoğlu Ö. Türk dünyası epik destan geleneği. Ankara: Ak çağ, 2015, 479 s.
59. Elçin Ş. Halk edebiyyatına giriş. Ankara: Sevinc matbaası, 1986, 759 s.
60. Gökyay O.Ş. Dedem Korkudun kitabı. İstanbul: Milli Eğitim Basımevi, 1973, 1018 s.
61. Günay Ü., Güngör H. Türk din tarihi. İstanbul: Laçın Yayınları, 1998, 538 s.
62. İnan A. Makaleler ve incelemeler, c. II. Ankara: Türk Tarih Kurumu yayınları, 1991, 418 s.
63. Kafesoğlu İ. Türk milli kültürü. İstanbul: Ötüken, 1998, 466 s.
64. Köprülü M.F. Edebiyat araştırmaları. c.1. İstanbul: Ötüken, yayınları, 1989, 70 s.
65. Ögel B. Türk mifolojisi. C.2. Ankara: TTK yayınları, 1989, 627 s.

66. Seyidoğlu B. Erzurum efsaneleri. İstanbul: Dergah yayınları, 1997, 292 s.
67. Yaşar Ocak A. İslam –Türk inanclarında Hızır yahut Hızır-İlyas kültü. Ankara: Türk Kültürünü Araştırma Enşt. Yayınları, 1985, 224 s.

**Rus dilində:**

68. Абдулла Б. Азербайджанский обрядовый фольклор и его поэтика. Баку: Элм, 1990, 216 с.
69. Жирмунский В.М. Тюркский героический эпос. Л.: Наука, 1974, 728 с.
70. Каррыев В.А. Эпические сказания о Кероглы у тюркоязычных народов. М.: Наука, 1968, 260 с.
71. Коккьяра Дж.Дж. История фольклористики в Европе. М.: Наука, 1960, 726 с.
72. Леви-Строс К. Первобытное мышление. М.: Республика, 1994, 384 с.
73. Мелетинский Е.М. Поэтика мифа. М.: Издательская фирма «Восточная литература», 2000, 407 с.
74. Мелетинский Е.М. Герой волшебной, сказки. М.: Издательство восточной литературы, 1958, 263 с.
75. Мифы народов мира. Энциклопедия в двух томах/ Главный редактор С.А.Токарев.Т.1. М.: Советская энциклопедия, 1991, 671 с; Т.2. М.: Советская энциклопедия, 1992, 719 с.
76. Пропп В.Я. Проблемы комизма и смеха. Ритуальный смех в фольклоре / Собрание трудов М.: Лабиринт, 1999, 285 с.
77. Пропп В.Я. Исторические корни волшебной сказки. Л.: ЛГУ, 1986, 365 с.
78. Тайлор Э.Б. Первобытная культура. М.: Издательство политической литературы, 1989, 573 с.
79. Токарев С.А. Ранние формы религии. М.: Политиздат, 1990, 622 с.
80. Фрезер Дж.Дж. Фольклор в Ветхом завете. М.: Политиздат, 1989, 542 с.
81. Якубова С. Азербайджанское народное сказание «Ашиг Гариб». Баку: Элм, 1968, 168 с.

**Praktik ədəbiyyat:**

82. Atalar sözü. Bakı: Yazıçı, 1981, 336 s.
83. Atalar sözü. Bakı: Öndər, 2004, 264 s.
84. Azərbaycan dastanları. 5 cilddə / I cild. Bakı: Lider, 2005 392 s.

85. Azərbaycan dastanları. 5 cilddə/II cild. Bakı: Lider, 2005, 448 s.
86. Azərbaycan dastanları. 5 cilddə/III cild. Bakı: Lider, 2005, 328 s.
87. Azərbaycan dastanları. 5 cilddə/IV cild. Bakı: Lider, 2005, 439 s.
88. Azərbaycan dastanları. 5 cilddə / V cild. Bakı: Lider, 2005, 344 s.
89. Azərbaycan folkloru antologiyası. İki kitabda / Birinci kitab. Bakı: Azərb. SSR EA-nın nəşriyyatı, 1968, 289 s.; İkinci kitab, 1968, 260 s.
90. Azərbaycan xalq əfsanələri. Bakı: Yazıçı, 1985, 286 s.
91. Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, 503 s.
92. Azərbaycan nağılları. 5 cilddə. Bakı: Şərq-Qərb,2005, I c., 360 s.; II c., 320 s.; III c., 296 s.; IV c., 336 s.; V c., 304 s.
93. Bayatılar /Toplayanlar: V.Vəliyev, İ.Paşayev. Bakı: Yazıçı, 1985, 200 s.
94. Bayatılar və manilər. Bakı: Səda, 2005, 99 s.
95. Əlizadə H. Azərbaycan el ədəbiyyatı / Nağıllar. Bakı: Elm və təhsil, 2013, 316 s.
96. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005, 304 s.
97. Güney Azərbaycan folkloru.VI kitab. Bakı: Elm və təhsil, 2017, 416 s.
98. Güney Azərbaycan folkloru.VIII kitab. Bakı: Elm və təhsil, 2019, 408 s.
99. Güney Azərbaycan folkloru. XVII kitab. Bakı: Elm və təhsil, 2024, 374 s.
100. Xuluflu V. Tapmacalar. Bakı: Nurlan, 2013,111 s.
101. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
102. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər Bakı: Öndər, 2004, 376 s.
103. Koroğlu (Vəli Xuluflu nəşri). Bakı: Elm, 1999, 200 s.
104. Koroğlu / Vəli Xuluflu nəşri-1927) / Nəşrə hazırlayanlar A.Nəbiyev, M.Məmmədov. Bakı: Elm, 2007, 150 s.
105. Koroğlu / Tərtib edənlər: İ.Abbaslı, B.Abdulla. Bakı: Lider, 2005, 552 s.
106. Koroğlu. Bakı: Ozan, 1997, 208 s.
107. Koroğlu. Bakı: Səda, 2005, 751 s.
108. Molla Nəsrəddin lətifələri. Bakı: Öndər, 2004, 304 s.
109. Molla Nəsrəddin lətifələri /Azərbaycan mətnləri əsasında. Bakı: Sabah, 2018, 376 s.

110. Qarabağ: folklor da bir tarixdir. / I kitab / Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanılmış folklor örnəkləri. Bakı: Elm və təhsil, 2012, 464 s.
111. Qarabağ: folklor da bir tarixdir. II kitab / Bərdə və Ağcabədi, rayonlarından toplanılmış folklor örnəkləri. Bakı: Elm və təhsil, 2012, 484 s.
112. Qarabağ: folklor da bir tarixdir. III kitab / Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanılmış folklor örnəkləri. Bakı: Elm və təhsil,2012, 468 s.
113. Qarabağ: folklor da bir tarixdir. IV kitab /Laçın, Qubadlı və Zəngilan rayonlarından toplanılmış folklor örnəkləri. Bakı: Elm və təhsil, 2013, 464 s.
114. Qarabağ: folklor da bir tarixdir. V kitab /Bərdə, Füzuli, Ağdam, Şuşa və Zəngilandan toplanılmış folklor örnəkləri. Bakı: Zərdabi LTD MMC, 2013, 452 s.
115. Qarabağ: folklor da bir tarixdir. VI kitab /Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanılmış folklor örnəkləri. Bakı: Zərdabi LTD MMC, 2013, 465 s.
116. Qarabağ: folklor da bir tarixdir. VI kitab /Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanılmış folklor örnəkləri. Bakı: Zərdabi LTD MMC, 2013, 465 s.
117. Qarabağ: folklor da bir tarixdir. VII kitab /Xocavənd rayonundan toplanılmış folklor örnəkləri. Bakı: Zərdabi LTD MMC, 2014, 444 s.
118. Qarabağ: folklor da bir tarixdir. VIII kitab / Kəlbəcər rayonundan toplanılmış folklor örnəkləri. Bakı: Zərdabi LTD MMC, 2014, 440 s.
119. Qarabağ: folklor da bir tarixdir. IX kitab /Beyləqan, İmişli, Tərtər, Bərdə və Cəbrayıl rayonlarından toplanılmış folklor örnəkləri. Bakı: Zərdabi LTD MMC, 2014, 401 s.
120. Qarabağ: folklor da bir tarixdir. X kitab /Zəngilan və Şuşa rayonlarından toplanılmış folklor örnəkləri. Bakı: Elm və təhsil, 2018, 382 s.
121. Qərbi Azərbaycan folkloru. I cild. Bakı: Elm və təhsil, 2023, 400 s.
122. Qərbi Azərbaycan folkloru. II cild. Bakı: Elm və təhsil, 2023, 414 s.
123. Qərbi Azərbaycan folkloru. III cild. Bakı: Elm və təhsil, 2024, 416 s.
124. Qərbi Azərbaycan folkloru. IV cild. Bakı: Elm və təhsil, 2025, 416 s.

125. Qərbi Azərbaycan folkloru. V cild. Bakı: Elm və təhsil, 2025, 402 s.
126. Tapmacalar. Bakı: Şərq-Qərb, 2004, 208 s.
127. Yeddi dastan /Toplayanı və tərtib edəni R.Rüstəmzadə. Bakı: Azərnəşr, 1989, 168 s.
128. Zeynallı A. Azərbaycan atalar sözü. Bakı: Elm və təhsil, 2012, 174 s.
129. Zəngəzur folklor örnəkləri. I cild. Bakı: Elm və təhsil, 2021, 356 s.